UNİKAL

№32 (2214) 6 sentyabr 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Dövlət qurumlarında büdcə talan olunur: Nazirlər isə tədbir görməkdə acizdir



Səh.8



## Anar Bayramovla qalmaqallı iş adamı arasında milyonlarla manatlıq anlaşma

*Təzəlikcə məlum oldu ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 2 740 604 manata ofis icarəyə götürəcək. Yayılan xəbərə görə, bununla bağlı Agentlik fərdi sahibkar Əşrəf Səxavət oğlu Səfərovla satınalma müqaviləsi bağlayacaq. Sahəsi 3 932 kvadratmetr olan ofis 34 ay müddətinə icarəyə götürülür. Bu halda aylıq icarə haqqı 80 606 manat edir. Əşrəf Səfərov cari ilin iyul ayında DOST İş Mərkəzinin ofis binasının icarəsi ilə bağlı elan etdiyi tenderin də qalibi olub. Bu tender üzrə satınalma müqaviləsinin maliyyə dəyəri 853 710 manat olub. DOST qeyd olunan ofis sahəsini Əşrəf Səfərovdan daha əvvəl də icarəyə götürüb. 2020-ci ildə 8 ay üçün 249 min 600 manat, 2022-ci ildə isə 6 ay üçün 213 min 432 manat, 2023-cü ildə 12 ay üçün 426 min 855 manat ödəyib.*

Səh.5

## "İpoteka şərtlərinin yüngülləşdirilməsi çox vacibdir"



*VI çağırış Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, vergi ödəyiciləri ilə bağlı təsdiqlənən yeni qərarın əhəmiyyətindən, Azərbaycan əhalisinin borclanma səviyyəsinin artmasından, kredit kartları üzrə şərtlərin sərtləşməsinin səbəblərindən və ipoteka kreditləri üzrə tələbin...*

Səh.4

## Qərb dairələrindən dəstək alan ermənilər təxribat xarakterli siyasət yürüdürlər



*Xəbər verdiyimiz kimi, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin Ermənistan-Azərbaycan sərhədində işləyən Aİ-nin Ermənistandakı missiyası monitorinq adı altında Rusiya, Azərbaycan və İrana qarşı mübarizə aparmaq üçün kəşfiyyat məlumatlarının toplanması ilə məşğul...*

Səh.9

## Biznesmen-deputatın mandatsız qalmasının pərdəarxası



*Sentyabrın 1-də keçirilən parlament seçkilərinin ardınca Milli Məclisin yeni tərkibi müəyyənləşib. Hələlik rəsmi nəticələr açıqlanmasa da , bəzi deputatların mandatsız qalacağı dəqiqdir. Onların arasında sabiq millət vəkili İqbal Məmmədov da var. Məsələ burasındadır ki, İ.Məmmədov hakim...*

Səh.6

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:48 PM Page 2



# Ağadadaş Ağayev "Medera" klinikasını məhkəməyə verdi



***Xalq artisti Ağadadaş Ağayev balta ilə insident törətdiyi "Medera Hospital"ı məhkəməyə verib.***

"Unikal"ın məlumatına görə, Xalq artistinin Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr - Mənəvi zərərin ödənilməsi ilə bağlı verdiyi şikayətə Binəqədi Rayon Məhkəməsində hakim Nigar Nəbizadənin sədrliyi ilə baxılacaq.

Qeyd edək ki, hadisə iyul ayında baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb. Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb. Balta isə klinikada çalışan qadın N.Paşayevaya dəyərək xəsarət yetirib.

***Seymur Əli***

# Şəbnəmlə Vəfa yenə üz-üzə gəldi

***Müğənnilər Vəfa Şərifova ilə Şəbnəm Tovuzlu arasında yenidən qalmaqal başlayıb.***



Bu dəfə mübahisəyə səbəb onların oxuduğu mahnı olub. Belə ki, hər iki ifaçı eyni mahnı fərqli şəxslər tərəfindən satılıb.

"Cənnətim" adlı mahnını ilk Şəbnəm oxuyub və müəllif kimi başqa şəxs qeyd edilib. Şəbnəm mahnını ötən gün təqdim edib.

Vəfa isə mahnını bu gün təqdim edəcəyini bildirib. O, bəstənin sözlərinin özünə aid olduğunu vurğuluyub.

"Mahnını aldığım adamla yazışmalarım, pulu ödəməyim, çek, hamısı var. Mən elə şey etmərəm" deyə, Vəfa iddialara cavab verib.

Qeyd edək ki, Şəbnəm və Vəfa illərdir küsülüdür. Onların mübahisəsinə səbəb Şəbnəmin keçmiş sevgilisinin hazırda Vəfa ilə birlikdə olması olub.

# "Allah yoxluğun üzünü qara etsin" - Xuraman Şuşalı

***Müğənni Xuraman Şuşalı artıq pəhriz saxlamayacaq.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, bu barədə ifaçı sosial şəbəkədə bildirib. O, aclığa dözə bilmədiyini qeyd edib: "Pəhrizə başlayandan arıqlamaq əvəzinə 2 kiloqram kökəlmişəm. Mən deyəndə ki, pəhrizdəyəm, ya qonaqlığa çağırırlar, ya iştahım açılır, ya da ki, aclığa dözə bilmirəm, əsməyə başlayıram. Oturub yeyirəm. 62 kiloqram idim, amma indi 64 olmuşam. Yaxşı yemək olanda yeyin. Allah yoxluğun üzünü qara etsin. Olmayanda yeməzsiniz. Mən qərar verdim, daha pəhriz saxlamayacağam".



# Niyam efirdə ağladı: "İşləməyə qoymurlar, bezmişəm"

***Müğənni Niyam Salami efirdə ona işləməyə mane olan insanlardan danışaraq, göz yaşı töküb.***

Sənətçi bildirib ki, onu rahat şəkildə fəaliyyət göstərməyə şərait yaratmırlar.

"Unikal" showclab-a istinadən xəbər verir ki, sözügedən açıqlamaları Space Tv -də yayımlanan "Duz-istiot" verilişində verib.

# Lətifə yeni tərzinə 15 min manat xərclədi

***Son günlər görünüşü ilə hər kəsi təəccübləndirən müğənni Lətifə Soyuöz ötən gün obyektivlərə tuş gəlib.***



"Unikal" axşam.az-a istinadən xəbər verir ki, ifaçı aparıcı Şəhriyar Əbilovun ad günü məclisinə qatılıb.

Gecəyə fransızsayağı geyim tərzində qatılan Lətifənin ünvanına təriflər yağdırılıb. Sənət adamları müğənninin xeyli çəki atması və görünüşünün dəyişməsinə olan təəccüblərini gizlədə bilməyiblər.

Lətifə gecəyə "Isabel Marant" brendinə məxsus qara geyimdə qatılıb. O, tərzini "Jimmy Choo" brendindən olan ayaqqabılar, "Dior" çantası, "Chopard", "Boucheron" brendinə məxsus zinnət əşyalarından istifadə edib. Libasın qiyməti 1000 dollar (təxminən 1700 manat), ayaqqabı 1100 dollar (təxminən 1870 manat), çanta 6500 dollar (təxminən 11050 manat) dəyərindədir.

# "Ailə qurub bəxti gətirməyən qadınlardanam"

***Aparıcı Zümrüd Bədəlova instaqramda ona ünvanlanan suallları cavablandırıb.***



"Unikal" olay-a istinadən bildirir ki, televiziya ulduzu yenidən ailə qurub, dünyaya övlad gətirəcəyi ilə bağlı suala bədbin cavabı ilə diqqət çəkib.

"Deyəsən istəmirəm. Bu tipli suallar verməyiniz mənasızdır. Əslində bütün qadınların arzusu, xəyalı eynidir. Arzusunda olan xanımların Allah xoşbəxt etsin. Bəzi qadınların sadəcə bəxti o barədə gətirməyib. Məndə onlardan biriyəm".

Qeyd edək ki, Z.Bədəlovanın 11 il əvvəl həyat yoldaşından ayrılıb. Bu nikahdan onun Ləman adlı bir qızı var. Zümrüd müsahibələrində bildirib ki, keçmiş əri övladı ilə maraqlansa da lakin o onunla danışmır.

31_27 IYUI-QARA.qxd 9/5/2024 10:51 PM Page 3





## "Azərbaycan qazandığı hər 100 dollardan 50-ni İtaliyadan əldə edir" - Ekspert

***"Bəzi ölkələrin adını daha çox hallandırıb İtaliyanın adını dilə çox gətirməsək də, İtaliya Azərbaycan üçün ən vacib ölkələrdən biridir. Bunun bir çox aydın görülən və görünməyən səbəbləri var".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı ekspert Eldəniz Əmirov deyib. O bildirib ki, Azərbaycan qazandığı hər 100 dollardan təxminən 50 dollarını İtaliyadan əldə edir: "2023-cü ildə Azərbaycanın 220-dən çox ölkə ilə ticarət aparması nəticəsində ölkəmizə 33,8 milyard dollar vəsait daxil olub ki, bunun 15,2 milyard dolları İtaliyanın payına düşür. Bu, fantastik nisbətdir. Yəni, Azərbaycana 200-dən çox xarici ölkədən daxil olan pulu tərəzinin bir gözünə, təkcə İtaliyadan daxil olan pulu digər gözünə qoymaq olar. Ticarət dövriyyəsinin detallarına gəldikdə isə onun ən yüksək həddi 2008-ci ildə olub. Bunun əsas səbəbi məhz həmin il Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin bu günə qədər olan tarixi rekord vurması olub. Belə ki, 2008-ci ildə bu dövriyyə 54,9 milyard dolları ötüb. Həmin il İtaliya ilə olan ticarət dövriyyəmiz də tarixin ən yüksək göstəricisi olaraq 19,4 milyard dolları keçib. Bundan sonra 7 il ərzində azalmalara o qədər baş verib ki, 2015-ci ildə İtaliya ilə ticarət dövriyyəmiz 7 dəfəyə qədər azalaraq 2,8 milyard dollara düşüb. Bunun ardında davamlı artım dinamikası nəticəsində 2022-ci ildə iki ölkə arasında 18,1 milyard dollarlıq ticarət edilib.

Ötən il isə bu dövriyyə 2,5 milyard dollar azalaraq 15,6 milyard dollar olub. Lakin burada bir məsələni qeyd edim ki, bu azalma ticarət münasibətlərinin azalması deyildir. Əsas səbəb qaz qiymətlərinin azalmasıdır. Rusiya-Ukrayna müharibəsinə görə 2022-ci ildə hədsiz yüksələn qaz qiymətləri səbəbindən dövriyyə 18 milyardı keçib, sonrakı ildə qiymətlərin sabitləşməsi səbəbindən 15,6 milyardda qərarlaşıb".

Ekspertin sözlərinə görə, ən əsas məsələlərdən biri idxal və ixrac arasındakı nisbətdir ki, burada da çox böyük müsbət fərq var: "Dövriyyənin 98 faizini bizim ixracımız təşkil edir. Təbii ki, Azərbaycan da İtaliya üçün çox önəmli ölkədir. İtaliyanın idxalında Azərbaycan Türkiyəni belə qabaqlayaraq 12-ci yerdə qərarlaşıb. Buna görə Cənubi Qafqaz ölkələri ilə apardığı ticarətin 90 faizdən çoxu Azərbaycanın payına düşür. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə 100-dən çox İtaliya şirkəti fəaliyyət göstərir. Prezident İlham Əliyevin 2020-ci ilin fevral ayında İtaliyaya dövlət səfəri zamanı "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" də imzalanıb. Bunun nəticəsidir ki, İtaliya şirkətləri işğaldan azad olunan ərazilərdə aktiv fəaliyyət göstərirlər. İtaliya şirkətlərinin gördüyü işlər miqyasına görə Türkiyə şirkətlərindən sonra ikinci yerdədir.

Cənab Prezidentin İtaliyaya bu səfəri isə heç şübhəsiz ki, ölkələr arası olan siyasi-iqtisadi münasibəti daha da inkişaf etdirəcək. Eyni zamanda iqtisadi münasibətlərdə hökmran olan neft-qaz amilini tədricən əvəzləyəcək yeni istiqamətlər üzrə irəliləyişlər əldə olunacaq".

# Dövlət qurumlarında büdcə talan olunur: Nazirlər isə tədbir görməkdə acizdir

## 20-yə yaxın məmur bir nəfərlə əlbir olaraq büdcə pullarını necə talayıb?

***Yola salmaq üzrə olduğumuz həftə maraqlı bir xəbər yayıldı: həmin xəbərdən belə aydın olurdu ki, Azərbaycanda bir sıra qurumların rəhbərləri və yüksəkvəzifəli əməkdaşlarının korrupsiya cinayətlərinin üstü açılıb.***

"Unikal" xəbər verir ki, "qafqazinfo"nun əldə etdiyi məlumata görə, Səhiyyə, Elm və Təhsil Nazirlikləri və Milli Elmlər Akademiyasının tabeliyindəki mərkəzlərdə dövlət vəsaitlərinin mənimsənilməsi faktları ortaya çıxıb. Cinayət məsuliyyətinə cəlb edilən 80 şirkətə rəhbərlik edən Kərimov Rüfət Nurəddin oğlunun ifadələri isə araşdırmanın əhatə dairəsini genişləndirib. Onun şirkətlərinə dövlət qurumlarından və onların müəssisələrindən müxtəlif təyinatlı pulların köçürülməsi Maliyyə Monitorinqi Mərkəzini şübhələndirib. Bir neçə ay davam edən istintaqla ehtimal olunandan daha böyük yeyintilər üzə çıxıb.

Müəyyən edilib ki, dövlət qurumları



tərəfindən şirkətlərə tikinti materiallarının alınması, su ilə təmin etmə və digər xidmətlər adı ilə 3 milyon manat pul köçürülüb. Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi cinayətdə iştirak edən şəxsləri tək-tək istintaqa cəlb edib. Hər biri Cinayət Məcəlləsinin xeyli miqdarda mənimsəmə və vəzifə saxtakarlığı maddələri ilə təqsirli biliniblər.

Bəs korrupsiyaya bulaşmış həmin rəsmilər kimlərdir? Gəlin siyahı ilə tanış olaq: Seidova Vəfa Yusif qızı - Elm və Təhsil Nazirliyinin Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli internat məktəbinin direktoru; Məşədiyeva Dilarə Yusif qızı- Elm və Təhsil Nazirliyinin Sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 nömrəli ümumi internat məktəbinin direktoru; Qurbanzadə Elmar Nazim oğlu - Elm və Təhsil Nazirliyinin 8 nömrəli Sanatoriya tipli internat məktəbinin baş mühasibi; Vəzirova Səbinə Rafiq qızı- Elm və Təhsil Nazirliyinin Sağlamlıq imkanları məhdud uşaqlar üçün 12 nömrəli xüsusi internat məktəbinin sabiq baş mühasibi; Mürsəlov Mürsəl Fərhad oğlu - "Sanator-Kurort Reabilitasiya Mərkəzi" Publik Hüquqi Şəxsinin baş direktoru; Bədəlov Rəşid Kamil oğlu - Səhiyyə Nazirliyinin "Professor Gindes adına respulika uşaq və yeniyetmələr üçün vərəm sanatoriyası" Publik Hüquqi Şəxsinin direktoru; Qurbanov Rauf Yusif oğlu - Səhiyyə Nazirliyinin Respublika Uşaq Sanatoriyasının baş həkimi; Şirinzadə Seymur Aydın oğlu- Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzinin mühasibi; Mütəllimova Cavahir Nadir qızı - TƏBİB-in "Tibbi Reabiltasiya Mərkəzi" Publik Hüquqi Şəxsinin direktoru; Babaxanlı Gülbəniz İbrahim qızı - Milli Elmlər Akademiyasının Hüseyn Cavidin ev muzeyinin direktoru; Qasımov Rəşad Bəhram oğlu- Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun direktor müavini; Nəcəfov Əzizağa Bayram oğlu - Azərbaycan Milli Elmlər Akademiyasının Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini; Babayev Yuriy Çingizoviç oğlu - Azərbaycan Dövlət Akademik və Opera Teatrının direktor müavini; Panayev Əhməd Rəhim oğlu - Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Texniki-istismar və təsərrüfat şöbəsinin müdiri; Firidov Elməddin Elşad oğlu - Abşeron rayonu İcra Hakimiyyəti başçısının Pirəkəşkül kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi; Verdiyev Elman Elim oğlu - Naftalan Şəhər bələdiyyəsinin sədri;

Adları qeyd olunan şəxslər hamısı hazırda bir neçə ağır cinayətdə ittiham olunan Rüfət Kərimovla cinayətkar əlaqəyə giriblər. Qurumlar dövlət vəsaiti hesabına görüləcək işlər üçün ayrılmış pulları Kərimovun şirkətlərinə köçürüb. Razılaşıblar ki, həmin pulla heç bir xidmət göstərilməyəcək, sadəcə şirkət malların qiymətini daha artıq göstərəcək. Artıq vəsait də müxtəlif yollarla dövr edilərək geri qaytarılacaq. Mənimsənilən puldan hər dəfə şirkətlərə faiz ödənilib.

Məsələn, Dövlət Akademik Opera və Balet Teatrına parça və bəzək əşyalarının alınması üçün 92 min manat pul ödənməli imiş. Amma direktor müavini bunu bilə-bilə şirkət rəhbərindən bu məbləğə əlavə 27 min manat da göstərilməsini istəyib. Həmin pul nağdlaşdırılaraq mənimsənilib.

Başqa bir misal: Milli Elmlər Akademiyasının Hüseyn Cavidin ev muzeyinin direktoru Cavidlə bağlı kitabların nəşrə hazırlanması və bir sıra işlərin görülməsi üçün eyni niyyətlə şirkətə bazar dəyərindən 12 min manat artıq pul köçürülüb.

Həmçinin, Səhiyyə Nazirliyinin Respublika Uşaq Sanatoriyasının baş həkimi eyni niyyətlə abadlaşma məqsədilə şam ağacları, gül kolları, yelləncəklər alınması üçün iş görən şirkətə 50 min manat bazar dəyərindən 4363 manat artıq pul köçürüb.

Bundan başqa, TƏBİB-in "Tibbi Reabiltasiya Mərkəzi" Publik Hüquqi Şəxsinin direktoru təmir işlərinin görülməsi üçün bazar dəyərindən 6 min artıq, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında Texniki-istismar və təsərrüfat şöbəsinin müdiri və digərləri də xidmət göstərilməsi adı ilə razılaşdıqları şirkətlərə artıq pullar köçürüblər.

Korrupsiya cinayətlərində qarşıya qoyulmuş əsas məqsəd dövlətə dəymiş ziyanın ödənilməsidir. Yuxarıda qeyd olunan şəxslər hər biri özlərini təqsirli biliblər. Antikorrupsiya idarəsi tərəfindən dövlətə dəymiş ziyan onların hamısına tam ödətdirilib. Bundan əlavə, onlar vurduqları ziyanın 25 faizi qədər Baş Prokurorluğun depozit hesabına ödəniş ediblər. Bu əsasla başlanmış cinayət işlərinə ayrı-ayrılıqda bəraətverici əsaslar olmadan xitam verilib.

Şirkət rəhbəri özü də əlbirliklə mənimsədiyi vəsaitləri dövlət büdcəsinə ödəyib. O, mənimsəmədən başqa cinayətlərdə də təqsirləndirildiyi üçün işinə məhkəmədə hüquqi qiymət veriləcək.

Bütün bunlarla yanaşı, bəzi sualların cavabı açıq qalır. Məsələn, ortaya çıxarılan yeyinti faktları ilə bağlı cinayət məsuliyyətinə cəlb edilən şəxslərin əməkdaşı olduğu nazirliklərin rəhbərləri nə düşünürlər? Ölkədə anti-korrupsiya tədbirlərinin geniş miqyas aldığı bir vaxtda Səhiyyə, Elm və Təhsil Nazirliklərində, həmçinin TƏBİB-də, Milli Elmlər Akademiyasında müəyyən post tutan şəxslərin büdcə talançılığında iştirakının məntiqi izahı varmı? Doğrudanmı, indiyədək çox sayda məmur yeyinti səbəbindən qandallandığı bir şəraitdə hələ də bəzi nazirliklərdə, digər dövlət qurumlarında çalışan hansısa vəzifə sahibləri dövlət vəsaitlərini mənimsəməkdən qorxmayacaq qədər cəsarət sahibidirlər? Əgər belədirsə, onlar həmin cəsarəti kimdən, yaxud kimlərdən alırlar?

Ən əsası: yuxarıda sadalanan suallara, yayılmış məlumatda adları çəkilən nazirliklərə, eləcə də digər dövlət qurumlarına rəhbərlik edən şəxslərin məntiqli, ağlabatan cavabı varmı?

Varsa, həmin cavabı media və ictimaiyyətin də bilməsi yaxşı olmazdımı?!

***Sənan Mirzə***

***Xəbər verdiyimiz kimi, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin Ermənistan-Azərbaycan sərhədində işləyən Aİ-nin Ermənistandakı missiyası monitorinq adı altında Rusiya, Azərbaycan və İrana qarşı mübarizə aparmaq üçün kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olduğunu bildirib.***



# Qərb dairələrindən dəstək alan ermənilər təxribat xarakterli siyasət yürüdürlər

Həmçinin, son günlərdə Ermənistan sərhəddə bir neçə dəfə təxribat törədib. Belə ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Ordumuzun Kəlbəcər rayonu və Naxçıvanda yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.Bu barədə hərbi ekspert Ədalət Verdiyev "Unikal"a açıqlamasında bildirib ki, Ermənistan tərəfinin son aylar ərzində kifayət qədər aqressiv fəaliyyət göstərməsi onun intensiv şəkildə silahlanması ilə bağlıdır: "Ermənistan tərəfinin son aylar ərzində kifayət qədər aqressiv fəaliyyət göstərməsinin nəticəsi məhz Avropa İttifaqı missiyasının sərhəddə genişlənməsi və Fransa, Hindistan, eləcə də ABŞ tərəfindən onların intesiv şəkildə silahlanması ilə bağlıdır.



**Tofiq Zülfüqarov: "Ermənilər göstərmək istəyirlər ki, guya, onlar üçün təhlükə var və bu barədə hansısa bəyanatların və vədlərin verilməsini istəyirlər"**



**Ədalət Verdiyev: "Cənubi Qafqazın taleyini region ölkələri və qonşu tərəfdaş dövlətlər həll etməlidir, kənardan heç kim ümumi evimizə sülh gətirməyəcək"**

Ermənistanın Azərbaycana qarşı aqressiv fəaliyyətləri işğalçı ölkənin dövlət və milli maraqlarına ziddir. Hesab edirəm ki, atəşkəs pozuntularının qarşısını daha sərt şəkildə almaq lazımdır ki, Ermənistanda qızmış başlar çox qısa bir müddətdə soyusun", - deyə ekspert qeyd edib.

Ədalət Verdiyev həmçinin Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkinin Azərbaycanla sərhəddə "monitorinq" aparan Avropa İttifaqı missiyası ilə bağlı sözlərini də şərh edib: "Mən əvvəllər də Avropa İttifaqının Azərbaycanla sərhəddəki fəaliyyətlərini "casus fəaliyyəti" adlandırmışam. Onların məqsədi əsasən Azərbaycan, Rusiya və İranın ərazisində fəaliyyətləri barədə məlumatları toplayıb həm Ermənistan tərəfinə, həm də Avropa İttifaqı missiyasının fəaliyyətinə nəzarət edən orqanlara, xüsusilə də Fransa tərəfinə ötürməkdən ibarətdir".

Başqa bir diqqətçəkən məqam isə Avropa İttifaqının Ermənistandakı fəaliyyəti və Rusiyanın bundan narahatlığıdır. Ermənistan-Azərbaycan sərhədində işləyən Aİ-nin Ermənistandakı missiyası monitorinq adı altında Rusiya, Azərbaycan və İrana qarşı mübarizə aparmaq üçün kəşfiyyat məlumatlarının toplanması ilə məşğuldur. Bunu Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin deyib. "Ermənistanın bu gün üzləşdiyi bir çox risklər 2022-ci ilə dayanır. Sentyabrda İrəvan Azərbaycanla sərhəddə vəziyyətin sabitləşdirilməsinə yönəlmiş KTMT ilə bağlı kompleks tədbirlər həyata keçirməyə razılaşıb. Söhbət ciddi təşəbbüslərdən gedirdi, o cümlədən hərbi-texniki yardım, monitorinq missiyasına rəhbərlik, sərhədçi qoşunların təliminə dəstək və s. Təəssüf ki, Ermənistan rəhbərliyi dövlətin sərhədlərini heç bir şəkildə qorumayan, Rusiya, Azərbaycan və İrana qarşı kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olan Aİ missiyasını dəvət etməyi üstün tutdu. Cənubi Qafqazın taleyini müstəsna olaraq region ölkələri və qonşu tərəfdaş dövlətlər həll etməlidir. Kənardan heç kim ümumi evimizə sülh və firavanlıq gətirməyəcək", - Kopirkin bildirib.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, ermənilərin məqsədini demək çətindir: "Vizual şəkildə hansı kəşfiyyat məlumatını toplamaq olar, bu da sual altındadır. Əminəm ki, kəşfiyyat məlumatları onlara Fransa tərəfindən ötürülür. Onlar bu məlumatları müxtəlif müasir üsullar və avadanlıqlarla toplayırlar. Ermənilər Fransa Prezidenti Emmanuel Makronun ölkələrinə səfəri olacağını planlaşdırırlar. Son günlərdə sərhəddə təxribatlar törətmələri də məhz bununla bağlıdır. Ermənilər göstərmək istəyirlər ki, guya, onlar üçün təhlükə var. Bu barədə hansısa bəyanatların və vədlərin verilməsini istəyirlər. Yəni, həmişəki kimi, ermənilər təxribat xarakterli siyasət yürüdürlər və köhnə üsullardan istifadə edirlər", - deyə o qeyd edib.

***M.İbrahimli***

# Paşinyan Bakı ilə imzalanmış Əsasnaməni niyə müzakirə etmədiyini açıqladı



***Xəbər verdiyimiz kimi, Ermənistan hökuməti "Dövlət Sərhədinin Demarkasiyası və Sərhəd Təhlükəsizliyi Komissiyası və Dövlət Sərhədinin Demarkasiyası üzrə Dövlət Komissiyasının birgə fəaliyyəti haqqında" Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında Əsasnamənin təsdiq edilməsi haqqında qanun layihəsini təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə hökumətin iclası zamanı baş nazir Nikol Paşinyan açıqlama verib.

"Biz məsələnin Ermənistan Respublikasının Konstitusiyasına uyğunluğunu yoxlamaq üçün Ali Məhkəməyə göndərdiyimiz üçün güman edirəm ki, Ali Məhkəmənin müsbət qərarını aldığımız halda, məsələ ratifikasiya üçün mütləq Parlamentə gedəcək və bəlkə orada daha ətraflı müzakirələr aparılacaq.

Biz bu məsələnin Ali Məhkəməyə göndərilməzdən əvvəl Hökumətin iclasında geniş müzakirə olunmasını məqsədəuyğun hesab etmədik ki, bu, indiki halda düzgün yanaşmadır. Ali Məhkəmənin müsbət mövqeyi olduğu halda Parlamentdə daha ətraflı siyasi və məzmunlu müzakirələr aparılacaq. Mənfi mövqe olsa, bu, tamam başqa söhbətdir.

Bu gün müzakirəyə ehtiyac yox idi, amma digər tərəfdən qeyd etmək istəyirdim ki, qərar verilib, indi Ali Məhkəmənin qərarını gözləyəcəyik", - Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# Azərbaycana səyahət xəbərdarlığı qəbuledilməzdir - Jan-Lük Reitzer



***Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatı ədalətsiz və tamamilə əsassızdır.***

Bunu ölkənin Milli Assambleyasının sabiq üzvü, fəxri deputat Jan-Lük Reitzer bildirib.

"Mən Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycana dair açıqladığı sərt səyahət xəbərdarlığını eşidəndə əvvəlcə bunun bir zarafat olduğunu düşündüm. Fransa tərəfindən verilmiş bu cür əsassız qərar inanılmaz və qəbuledilməzdir. Mən ətrafımda Azərbaycanın adı çəkiləndə bu ölkəyə səyahət etməyi tövsiyə edirəm. Fransa mediasının Azərbaycanını yanlış təqdim etməyə çalışdığını bildirirəm. Təklif edirəm ki, fransalılar özləri Azərbaycana gedib ölkə ilə tanış olsunlar və özləri bu ölkə haqqında fikir yaratsınlar. Heç bir Fransa vətəndaşı Azərbaycanda təhlükədə deyil. Bu çağırış birmənalı şəkildə ədalətsiz və əsassız bir xarakter daşıyır", - o bildirib.

# COP29 ilə əlaqədar elektron viza portalı istifadəyə verilib




***Azərbaycan hökuməti bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasında (COP29) iştirak etmək üçün akkreditasiyadan keçmiş nümayəndələrə pulsuz viza almaq imkanı yaradıb.***

Bu barədə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) katibliyindən bildirilib.

Məlumata görə, sənədi rəsmi viza portalı, eləcə də Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə əldə etmək olar.

"COP29 vizası sənədi rəsmi elektron viza portalı vasitəsilə almaq üçün onlayn müraciət edildikdən və ya Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqlarına ərizə verildikdən sonra üç iş günü ərzində verilir", - məlumatda qeyd olunub.

31_27 IYUI-QARA.qxd 9/5/2024 10:58 PM Page 5



# Prezident Meloni ilə görüşdü



***Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, Romanın "Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İtaliyanın nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olundu.

Sonra dövlətimizin başçısı İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni birgə foto çəkdirdilər.

# Ali Məhkəmədə Beynəlxalq Hakimlər İttifaqının Prezidenti ilə görüş keçirilib



***2024-cü il sentyabrın 5-də ölkəmizdə səfərdə olan Beynəlxalq Hakimlər İttifaqının Prezidenti Duro Sessanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.***

"Unikal" xəbər verir ki, qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov Azərbaycanda aparılan məhkəmə-hüquq islahatları və Ali Məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verib.

Beynəlxalq təşkilatlarla qarşılıqlı təcrübə mübadiləsinin daha da gücləndirilməsinin əsas prioritetlərdən biri olduğu, sıx əməkdaşlığın ədalət mühakiməsinin səmərəliliyinin artmasına şərait yaratdığı vurğulanıb. Qeyd edilib ki, bu istiqamətdə Beynəlxalq Hakimlər İttifaqı ilə əməkdaşlığın gücləndirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Duro Sessa ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, bu münasibətlərin inkişafına xüsusi diqqət yetirildiyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparılıb.

# Heydər Əliyev Beynəlxalq Aeroportu vətəndaşlara xəbərdarlıq etdi

***Son günlərdə Heydər Əliyev Beynəlxalq Aeroportunun adından sosial şəbəkələrdə açılmış saxta səhifələrdə guya itmiş baqajların satışı ilə bağlı elanlar yerləşdirilir və vətəndaşların şəxsi məlumatlarının toplanmasına cəhd göstərilir.***

Bakı hava limanından "Unikal"a bildirilib ki, bu tip məlumatlar tamamilə saxtadır və Heydər Əliyev Beynəlxalq Aeroportu ilə heç bir əlaqəsi yoxdur.

"Vətəndaşlarımızı diqqətli olmağa çağırır, məlumatları yalnız rəsmi mənbələrdən, o cümlədən Heydər Əliyev Beynəlxalq Aeroportunun rəsmi airport.az saytından, sosial şəbəkə hesablarından izləməyi tövsiyə edirik. Saxta material, habelə onun mənbəyi barədə müvafiq tədbirlərin görülməsi təmin edilməkdədir", - deyə məlumatda bildirilir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyevin İtaliya Prezidenti ilə birgə işçi naharı olub



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.***

"Unikal" xəbər verir ki, Romanın "Quirinale" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşıladı.

Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edildi.

Sonra birgə foto çəkdirildi.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğuladı.

Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırladı.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğuladı, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd etdi. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulandı. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olundu.

Söhbət zamanı humanitar və mədəni əlaqələrin önəminə toxunuldu, ADA Universiteti ilə İtaliyanın beş universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti qeyd edildi. Burada təhsil alan tələbələrin gələcəkdə ölkələrimiz arasında dostluğun elçiləri olacaqlarına və münasibətlərimizin inkişafına töhfə verəcəklərinə əminlik bildirildi.

İtaliya-Azərbaycan Universitetinin yaradılmasının böyük əhəmiyyət daşıdığını deyən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında da mühüm rol oynadığını vurğuladı.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu dedi və ölkəsinin COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirdi. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğuladı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda, ölkəmizə olan etimadın göstəricisidir. Dövlətimizin başçısı COP29 - beynəlxalq iqlim dəyişikliyi məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Dövlətimizin başçısı Azərbaycanın COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcəyini vurğuladı.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğuladı və Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud olduğunu dedi. Bununla belə, dövlətimizin başçısı təəssüflə qeyd etdi ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Regionda sülh gündəliyinə toxunan Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda, Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirdi. Dövlətimizin başçısı buna baxmayaraq Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğunu qeyd edərək, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğuladı və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirdi.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulandı.

Sonda Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət etdi. Sercio Mattarella dəvəti məmnunluqla qəbul etdi.

# "Bu gündən sonra daxil olmuş müraciətlərə baxılmayacaq" - MSK sədri



***Sentyabrın 1-də keçirilmiş parlament seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyasına bu gündən sonra daxil olmuş müraciətlərə baxılmayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın bu gün keçirilən iclasında deyib.

O qeyd edib ki, müraciətlərə baxılması müddəti bu gündən başa çatır.

Qeyd edək ki, sentyabrın 1-də Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirilib. Seçkiləri müşahidə etmək üçün 112 min 749 yerli müşahidəçi qeydə alınıb. Onlardan 65 mindən çoxu siyasi partiyaların nümayəndələridir. Qeydə alınmış beynəlxalq müşahidəçilərin sayı 598 nəfər olub ki, onlar 51 Təşkilatı, 69 ölkəni təmsil edib. Parlament seçkilərində qeydə alınan 990 namizəddən 305-i 25 siyasi partiyanın nümayəndəsidir. 371 nəfər siyasi partiyaların üzvü olmasına baxmayaraq, partiyalar tərəfindən namizəd olaraq irəli sürülməyiblər. Ümumilikdə 676 namizədin siyasi partiya mənsubiyyəti var.

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:58 PM Page 6



# COP29-a ayrılan vəsaitin auditi aparılacaq




***Məlum olduğu kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un keçirilməsi ilə bağlı hazırlıq tədbirləri davam edir.***

Bu barədə "Unikal"a COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, hazırlıq çərçivəsində görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə ictimaiyyətə mütəmadi məlumatlar təqdim edilir. Konfransın keçirilməsi üçün dövlət büdcəsində müvafiq ayırmalar təsdiq edilmişdir. Qeyd edək ki,ayrılmış vəsaitlər hesabına dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən biri olan beynəlxalq konfransın yüksək səviyyədə təşkili və zəruri infrastrukturun qurulması üzrə işlərin aparılması nəzərdə tutulur.

COP29-a ayrılmış dövlət vəsaiti üzərində maliyyə nəzarətinin həyata keçirilməsi məqsədilə müvafiq dövlət orqanları ilə birlikdə ölkənin ali audit orqanı tərəfindən konfransın təşkili üzrə maliyyə idarəetməsinin, ayrılmış dövlət vəsaitinin təsdiq edilmiş göstəricilərə, bağlanılmış müqavilə məbləğlərinin aidiyyəti istiqamətdə ayrılmış vəsaitə, habelə müqavilələrin icrasının müqavilə şərtlərinə uyğunluğunun, həmçinin müvafiq sənədləşmənin tamlığının qiymətləndirilməsi aparılır. Məqsəd - Maliyyə nəzarətinin keçirilməsi zamanı pre-auditə (ilkin auditə) dair müvafiq audit pinsiplərində qeyd olunan məqamlar da nəzərə alınmaqla maliyyə pozuntuları baş verməzdən öncə onların qarşısının alınmasıdır.

Eyni zamanda,maliyyə nəzarətinin aparılmasında məqsəd hesabatlılıq və şəffaflıqla yanaşı, tədbirin təşkili üçün ayrılmış vəsaitin səmərəli istifadə olunması və qənaət olunan məbləğlərin büdcəyə qaytarılmasıdır.

Qeyd olunmalıdır ki, tədbir başa çatdıqdan sonra icra olunmuş bütün xərclərin auditi üzrə müvafiq qaydada həm beynəlxalq təşkilat, həm də Hesablama Palatası tərəfindən hesabatın və auditor rəyinin hazırlanması nəzərdə tutulur.

# Baş prokuror Şərq İqtisadi Forumunda çıxış etdi

***Xəbər verildiyi kimi, Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Vladivostok şəhərində işgüzar səfərdədir.***




"Unikal" xəbər verir ki, sentyabrın 5-də nümayəndə heyəti Şərq İqtisadi Forumunun işində iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Forum iştirakçılarını salamlayaraq tədbirin qlobal iqtisadi problemlərin həllinə öz töhfəsini verəcəyini və konstruktiv səmərəli dialoqa nümunə olacağını bildirib. Daha sonra Kamran Əliyev "Rossia 24" televiziya kanalına müsahibə verib.

Rusiya Baş Prokurorluğunun təşkilatçılığı ilə keçirilən biznes subyektlərinin hüquqlarının qorunmasına həsr olunmuş sessiyada çıxış edən Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi kursuna uyğun olaraq sahibkarlığın inkişafının dövlət siyasətinin əsas prioritetlərindən olduğu, aparılan islahatlar nəticəsində sahibkarlıq fəaliyyətinin qanunvericilik bazası və lazımi infrastrukturunun yaxşılaşdırıldığını qeyd edib.

30 illik erməni işğalından azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinin aparıldığını qeyd edən Baş prokuror, ölkəmizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiyaların yatırılması üçün əlverişli biznes mühitinin yaradılmasından bəhs edib.

Həmçinin, Kamran Əliyev ölkəmizdə prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar, həmçinin prokurorluğun müvafiq struktur qurumları tərəfindən sahibkarlıqla məşğul olan hüquqi və fiziki şəxslərin maraqlarının qorunması sahəsində fəaliyyətindən danışıb.

Baş prokuror cari ilin noyabrında dünyanın ən mötəbər beynəlxalq tədbiri olan COP29-un ölkəmizdə keçiriləcəyi barədə görüş iştirakçılarına məlumat verib.

Sessiya zamanı digər natiqlər çıxışlar edib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Baş prokuror Taylandlı və Laoslu həmkarları ilə ikitərəfli görüşlər keçirib, əməkdaşlıq perspektivləri müzakirə edilib.

Nümayəndə heyətinin Rusiyaya işgüzar səfəri başa çatıb.

# İtaliya qəzeti Azərbaycan-İtaliya strateji əlaqələrindən yazdı

***İtaliyanın əsas mətbu orqanlarından olan "Formiche" qəzetində Azərbaycan-İtaliya münasibətlərindən bəhs edən geniş məqalə yayımlanıb.***




"Unikal" AZƏRTAC-a istinadən xəbər verir ki, yazıda bu iki strateji tərəfdaş ölkənin güclü ticarət əlaqələrinə malik olduğu bildirilir, yeni geosiyasi çağırışlar fonunda münasibətlərin xüsusi çəkisinin gücləndirilməsinin əhəmiyyəti vurğulanır. Diqqətə çatdırılır ki, Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan müxtəlifliyi təbliğ edir, fərqli mədəniyyətlərin və sivilizasiyaların dəyərlərini mənimsəyir. Bu amillər ona əsl körpü rolunu oynamağa imkan verir.

### Azərbaycanın rolu

İtaliyanı Mərkəzi Asiya ilə birləşdirən və çox mühüm coğrafi məkanda yerləşən Azərbaycan kimi əsas ölkə ilə münasibətlərdə təmsil olunan incə, lakin həlledici geosiyasi tel var: Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və Albaniya - onlar Avro-Aralıq dənizi və Qafqaz kimi iki tamamilə strateji kvadrantı təşkil edən ölkələrdir.

Materialda vurğulanır ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır, rəsmi Bakı isə Cənubi Qafqaz regionunda Romanın əsas ticarət tərəfdaşıdır. İki ölkə arasında möhkəm ticarət əlaqələri yeni geosiyasi çağırışlar fonunda bu regionda potensial təsirin xüsusi çəkisi ilə güclənir. Ölkələrimiz arasında güclü əlaqələrin olduğu, üç ay əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda İtaliyanın müdafiə naziri Quido Krosetto, bu ölkənin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli ilə görüşdüyü qeyd edilir.

Məqalədə, həmçinin ölkəmizin noyabrda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına ev sahibliyi edəcəyi vurğulanır. İtaliyanın bu beynəlxalq tədbirə xüsusi töhfəsini verəcəyi bildirilir.

### Bakı ilə Roma arasında əlaqələr

Yazıda keçən il "Ansaldo Energia" ilə "AzərEnerji" arasında imzalanan və dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkətinin Azərbaycandakı yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcəyi diqqətə çatdırılır. Eyni zamanda, İtaliyanın "Leonardo" şirkətinin Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki modernləşdirilməsi proqramı çərçivəsində Azərbaycana "C-27J Spartan" tipli hərbi nəqliyyat təyyarəsi tədarük etdiyi bildirilir.

Vurğulanır ki, ikitərəfli əlaqələr nəinki müdafiə, eyni zamanda, təhsil və mədəniyyət sahələrini də əhatə edir. Bakıda yerləşən İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsində Azərbaycanın ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair sazişlər imzalanıb.

### Enerji sahəsində əməkdaşlığı

Müəllif ölkəmizin İtaliyanın enerji təchizatına verdiyi töhfədən bəhs edir, Azərbaycanın "Şahdəniz 2" yatağından hasil olunan təbii qazı "köhnə qitəyə" nəql edən Cənub Qaz Dəhlizi layihəsinin Avropa hissəsi olan TAP boru kəmərinin avropalı tərəfdaşlar üçün "təhlükəsizlik yastığı" rolunu oynadığını vurğulayır. Qeyd edir ki, indiyədək TAP-la Avropaya təxminən 26 milyard kubmetr təbii qaz nəql edilib. TANAP boru kəməri ilə Türkiyə sərhədində birləşən TAP boru kəməri Yunanıstanın şimalına, Albaniyaya, daha sonra Adriatik dənizindən keçməklə İtaliyanın Apuliya regionu sahillərinə çatır. Qaz boru kəməri texniki nöqteyi-nəzərindən obyektiv və əsaslı töhfə olmaqla yanaşı, xəttin keçdiyi bütün ölkələrin maraqlarını birləşdirən siyasi infrastrukturu təmsil edir.

### COP29 və Mədəniyyətlərarası Dialoq Forumu

Yazıda vurğulanır ki, Azərbaycanın rolu enerji ilə məhdudlaşmır - onun fəaliyyəti noyabrda növbəti COP-un təşkili və mədəniyyətlərarası dialoq kimi iki proqram xətti üzrə davam edir. Azərbaycanın mədəniyyətlərarası dialoqun təşviqinə yönəlmiş qlobal təşəbbüs kimi 2008-ci ildə mühüm beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıqla başlatdığı "Bakı Prosesi" çərçivəsində bu il ölkə paytaxtında VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Bu, hökumətlər, beynəlxalq təşkilatlar, ekspertlər, alimlər, siyasətçilər və digərləri üçün bir-biri ilə ünsiyyət kontekstində mədəniyyətlərarası kommunikasiyaların inkişaf edən dinamikası və qlobal təhlükəsizlik üzrə mənalı müzakirələr aparmaq baxımından mühüm platformadır.

## İtaliya-Azərbaycan dəyirmi masası keçirilib

***Prezident İlham Əliyevin Azərbaycanın əsas ticarət tərəfdaşlarından olan İtaliyaya işgüzar səfəri çərçivəsində İtaliya-Azərbaycan dəyirmi masası keçirilib.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib.

"İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso və həmkarlarla biznes əlaqələrinin, sənaye, bərpaolunan enerji, infrastruktur, nəqliyyat, tekstil, kimya, əczaçılıq və digər prioritet sektorlarda əməkdaşlığın gücləndirilməsi barədə səmərəli müzakirələrimiz oldu", - deyə o qeyd edib.

## Pənah Hüseyn istefa verir?

***Azərbaycan Xalq Partiyasının (AXP) sədri, sabiq baş nazir Pənah Hüseynin partiya sədrliyindən istefa verməsi barədə xəbərlər yayılıb.***

"Unikal" xəbər verir ki, sabiq baş nazir bu barədə Musavat.com-a danışıb. O, yayılan xəbərləri təkzib edib. AXP sədri deyib ki, onun fikirlərini konteksdən çıxarıblar: "Bu barədə İdarə Heyətində müzakirələr apara bilərik, demişəm. İstefa verməyim barədə yayılan məlumatlar həqiqətə uyğun deyil".

Qeyd edək ki, sözügedən məlumatı "Azadlıq Radiosu" yayıb. Bildirilib ki, Pənah Hüseyn açıqlamasında istefasına səbəb kimi 1 sentyabr tarixində keçirilən növbədənkənar parlament seçkilərində uduzduğunu göstərib.

## Növbəti köç karvanı Şuşa şəhərinə çatıb

***Növbəti köç karvanı Şuşa şəhərinə çatıb. "Unikal" xəbər verir ki, sentyabrın 5-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Şuşaya çatıb.***



Bu mərhələdə şəhərə köçürülən 102 nəfərdən ibarət 30 ailəyə mənzillərin açarları təqdim edilib.

Mərasimdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmiləri iştirak ediblər.

Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzil verilir. İndiyədək şəhərdə 177 ailə (672 nəfər) mənzillə təmin edilib.

# "İpoteka şərtlərinin yüngülləşdirilməsi çox vacibdir"

## Vüqar Bayramov: "Təklifimiz ondan ibarətdir ki, güzəştli kreditlər üzrə daha çox vəsaitin ayrılması imkanlarına baxılsın, əlçatanlığın genişləndirilməsi ilə bağlı yeni mexanizmlər tətbiq olunsun"

***VI çağırış Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, vergi ödəyiciləri ilə bağlı təsdiqlənən yeni qərarın əhəmiyyətindən, Azərbaycan əhalisinin borclanma səviyyəsinin artmasından, kredit kartları üzrə şərtlərin sərtləşməsinin səbəblərindən və ipoteka kreditləri üzrə tələbin azalmasından danışıb.***

***-Vüqar bəy, vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası təsdiqlənib. Bu, Vergi borcu olanlar üçün hansı üstünlüklər yaradacaq?***

-Nazirlər Kabineti tərəfindən vergi ödəyicisinin vergi borcunu ödəmə qabiliyyətinin müəyyənləşdirilməsi qaydası təsdiq olunub. Bu qaydalar vergi ödəyicisinin orta aylıq gəlir və xərclərini müəyyənləşdirmək məqsədi daşıyır. Bu zaman dünya praktikasında istifadə olunan təcrübəyə üstünlük verilib. Belə ki, gəlir vergisi ödəyicisinin əvvəlki hesabat üzrə seçdiyi uçot metoduna uyğun olaraq təqdim etdiyi vergi yoxlaması keçirilmiş gəlir vergisi bəyannaməsi üzrə ümumi gəliri və eləcə də cəmi xərcləri 12-yə bölünməklə onun orta aylıq gəlir və xərci müəyyənləşdirilir. Yəni, vergi ödəyicisi illik nə qədər gəlir və xərc təqdim edibsə, onu 12-yə bölməklə həmin şəxsin orta aylıq gəlir və xərcləri müəyyən olunur. Bu, sadələşdirilmiş vergi ödəyicisində nisbətən fərqlidir. Amma ümumi yanaşma ondan ibarətdir ki, vergi ödəyicisinin təqdim etdiyi hesabatlar əsasında onun ödəmə qabiliyyəti müəyyən edilsin. Bunun vergi ödəyiciləri üçün bir sıra üstünlükləri var. Bu zaman vergi ödəyicisinin ödəmə qabiliyyəti müəyyənləşdirildikdən sonra həmin şəxsin vergi ödənişi ilə bağlı Vergi Məcəlləsinin şərtlərinə uyğun olaraq müddətlər müəyyən oluna bilər. Xüsusən avanslara görə Əlavə Dəyər Vergisi (ƏDV) borcu yarandıqda vergi ödəyicisinin vergi borcunu birdəfəyə ödəmə qabiliyyətinin olmaması kimi qiymətləndiriləcək. Bu, imkan verəcək ki, vergi ödəyicisinin seçimindən asılı olaraq ona borcunu ödəmək üçün müəyyən zaman verilsin. Həmin müddətdə vergi ödəyicisi tərəfindən vergilərin ödənilməsi həyata keçirilsin. Bu, vergi ödəyicisinin ödəmə qabiliyyətinə uyğun olaraq fərdi yanaşmanın tətbiqinə imkan verəcək. Bu da ödəmə qabliyyəti zəif olan vergi ödəyiciləri üçün vergiləri ödəmək baxımından yeni imkan kimi xarakterizə edilə bilər.

***-Azərbaycan Mərkəzi Bankının (AMB) kreditləşmə fəaliyyətinə dair sorğusunda bildirilib ki, bu ilin II rübündə Azərbaycan əhalisinin borclanma səviyyəsi üzrə uzunmüddətli diffuziya indeksi əvvəlki illə müqayisədə 4 faiz bəndi artaraq 23 % təşkil edib. Belə ki, Azərbaycan əhalisinin borclanma səviyyəsi 4 faiz bəndi artıb. Əhalinin borclanmasına səbəb nədir?***

-Ümumiyyətlə, uzunmüddətli diffuziya indeksi vətəndaşların borclanma səviyyəsini göstərməklə yanaşı həm də kredit portfelindəki artımı göstərir. Əslində kommersiya bankları əldə etdikləri vəsaiti həm də kreditlər formasında təqdim etməlidirlər. Nəzərə alsaq ki, kredit portfelindəki artımlar 2024-cü ildə də davam edib. Bu ilin ilk ayında kredit portfelinin həcmi 23 milyard 183 milyon manat idisə, bu rəqəm artıq 25 milyard 694 milyon manatadək yüksəlib. Hər ay əvvəlki aya nisbətən kredit qoyuluşlarında artımlar müşahidə olunub. Yəni, avqustda 25 milyard 694 milyon manat idisə, iyulda bu rəqəm 25 milyard 429 milyon manat idi. Həmçinin, yarım ilin yekunlarında 25 milyard 758 milyon manat olub. Eyni zamanda, may ayında 24 milyard 644 milyon manatlıq kredit qoyuluşu həyata keçirilmişdi. Bu həm də kreditlərə əlçatanlığın artırılması anlamına gəlir. Ona görə ki, vətəndaşların və biznesin mütəmadi olaraq kreditlərə ehtiyacı var. Bu baxımdan kreditə əlçatanlıq çox vacibdir. Eyni zamanda, kredit faizlərinin optimallaşdırılması çox vacibdir. Bu ondan xəbər verir ki, kredit tələbi artmaqdadır. Bir sıra banklarda kredit əlçatanlığının yüksəlməsi müşahidə olunur. Bunların fonunda kredit faizlərinin aşağı salınması yenə də prioritetdir. Kredit faizlərinin aşağı salınması üçün yeni yanaşmaya ehtiyac var. Birmənalı şəkildə kredit faizlərinin azaldılması növbəti dövr üçün bank sektorunda ən vacib məsələlərdən biri olaraq qalmaqdadır.

***-Azərbaycan Mərkəzi Bankının kreditləşmə fəaliyyətinə dair sorğusunda qeyd edilib ki, kredit kartları üzrə şərtlərin sərtləşməsi proqnozlaşdırılır. Bu nə ilə bağlıdır?***

-Kredit kartları üzrə şərtlərin hansı istiqamət üzrə sərtləşdirilməsi qeyd olunmasa da, daha əvvəl Dövlət Vergi Xidməti tərəfindən "card to card" əməliyyatlarına nəzarətin gücləndirilməsi ilə bağlı açıqlamalar vardı. Çünki bəzi hallarda "card to card" əməliyyatları vergidən yayınmağa gətirib çıxarıb. Məsələn, vətəndaş hər hansı bir məhsul alır və ya xidmətdən istifadə edir, kart vasitəsilə ödəniş etmək istəyəndə sahibkar POS-terminalın işləmədiyini bildirir. Bu zaman təklif edir ki, "card to card", yəni, kartdan- karta ödəniş həyata keçirilsin. Bu tip ödənişlər vergidən yayınmağa gətirib çıxarır. Burada vacib məqamlardan biri ondan ibarətdir ki, kartdan- karta ödənişlərin tənzimlənməsi fonunda vergi ödəyicisi subyekti olmayan əməliyyatların həyata keçirilməsində hər hansı çətinlik olmasın. Əksər hallarda "card to card" bir şəxsin yaxınına və ya tanışına vəsait göndərməsi anlamına gəlir. Bəzi hallarda ehtiyac olanda vətəndaş öz yaxınından "card to card" əməliyyatı vasitəsilə vəsait əldə edə bilir. Ona görə də bu istiqamətdə şərtlər yeniləşərsə, yalnız vergidən yayınmaya xidmət edən əməliyyatları əhatə etməlidir. Digər istiqamətlərdə, xüsusilə vətəndaşların artıq vergi ödədiyi sərbəst vəsaitlərin istifadəsində hər hansı çətinlik yaratmamalıdır.



***-Azərbaycanda ipoteka kreditləri üzrə tələb azalıb. Ümumiyyətlə, ölkəmizdə ipotekaya əlçatanlıq hər kəs üçün rahat deyil. İpotekanı daha çox şəxsin əldə edə bilməsi üçün hansı addımlar atılmalıdır?***

-İpoteka şərtlərinin yüngülləşdirilməsi çox vacibdir. Xüsusən sosial ipoteka kreditlərinin qısa zamanda bölüşdürülməsi müşahidə edilir. Həm güzəştli ipoteka kreditlər üzrə məbləğin artırılması, həm də şərtlərə baxılması vacib məsələdir. Güzəştli ipoteka kreditləri dövlət büdcəsindən ayrılan vəsait hesabına təklif olunan kreditlərdir. Həm kredit faizlərinə baxılması, həm də aşağı salınması mümkündür. Eyni zamanda, bu istiqamətdə daha çox vəsaitin ayrılması məqsədəuyğun olardı. Daha çox vəsaitin ayrılması xüsusən gənclərin mənzil probleminin həllinə dəstək olar. Təklifimiz ondan ibarətdir ki, güzəştli kreditlər üzrə daha çox vəsaitin ayrılması imkanlarına baxılsın, əlçatanlığın genişləndirilməsi ilə bağlı yeni mexanizmlər tətbiq olunsun. Həmçinin, şərtlərin yumşaldılması istiqamətində addımlar atılsın ki, bu da vətəndaşlarımızın güzəştli kreditlərə əlçatanlığını artırsın. Güzəştli kreditlər daha çox sosial dəstəyə ehtiyacı olan vətəndaşlarımız üçün nəzərdə tutulan kreditlərdir. Fəlsəfəsi sosial dəstəyin gücləndirilməsi olduğu üçün bu istiqamətdə qeyd etdiyimiz məqamların nəzərə alınması məqsədəuyğun olardı.

***Anar Kəlbiyev***

# Anar Bayramovla qalmaqallı iş adamı arasında milyonlarla manatlıq anlaşma

## Bu ilin təkcə üç ayı ərzində dövlət qurumları ilə 6 milyonluq icarə müqaviləsi imzalayan Səfərovlar - keçmiş bankirlikdən əmlak krallığına!



***Təzəlikcə məlum oldu ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 2 740 604 manata ofis icarəyə götürəcək. Yayılan xəbərə görə, bununla bağlı Agentlik fərdi sahibkar Əşrəf Səxavət oğlu Səfərovla satınalma müqaviləsi bağlayacaq. Sahəsi 3 932 kvadratmetr olan ofis 34 ay müddətinə icarəyə götürülür. Bu halda aylıq icarə haqqı 80 606 manat edir.***

Əşrəf Səfərov cari ilin iyul ayında DOST İş Mərkəzinin ofis binasının icarəsi ilə bağlı elan etdiyi tenderin də qalibi olub. Bu tender üzrə satınalma müqaviləsinin maliyyə dəyəri 853 710 manat olub.

DOST qeyd olunan ofis sahəsini Əşrəf Səfərovdan daha əvvəl də icarəyə götürüb. 2020-ci ildə 8 ay üçün 249 min 600 manat, 2022-ci ildə isə 6 ay üçün 213 min 432 manat, 2023-cü ildə 12 ay üçün 426 min 855 manat ödəyib.

2024-cü ilin yanvarında isə Əşrəf Səfərovla bu dəfə 213 428 manat məbləğində müqavilə imzalandığı açıqlanıb. Həmin müqaviləyə əsasən 6 ay müddətində 2.750 m(2) sahəsi olan ofisin icarəsi xidməti satın alınacaqdı.

Yerli KİV yazır ki, Əşrəf Səfərov "Kia Motors Az" MMC-nin qanuni təmsilçisidir. Şirkətin sahibi isə onun atası Səxavət Səfərovdur.

Səxavət Səfərovun və oğlunun adı vaxtilə 40 milyonluq maliyyə qalmaqalında keçirdi. İddialara görə, "Kia Motors Az" MMC dövlətdən 40 milyon manat gizlədib. Sonradan araşdırmalar nəticəsində məlum olub ki, həmin pul "Parabank"ın Nəsimi filialında saxlanılır. Bu fakt ortaya çıxandan sonra vergi orqanları bankda yoxlamalara başlayıb.

“Araşdırmalara “Kia Motors Az” MMC-nin dövlətdən gizlətdiyi 40 milyon manatı “Parabank”ın Nəsimi filialında qeyri-qanuni şəkildə saxlamasının aşkarlanmasından sonra start verilib. Elə buna görə də “Parabank” rəhbərliyi ilə “Kia Motors Az” MMC-nin faktiki rəhbəri Səxavət Səfərovun dostluq münasibətləri düşmənçilik həddinə çatıb. Qeyd edək ki, “Parabank”ın Nəsimi filialına “Kia Motors Az” MMC-nin faktiki rəhbəri Səxavət Səfərovun oğlu Əşrəf Səfərov rəhbərlik edir. Daha öncə “Kia Motors Az”-ın dövlətdən 40 milyona yaxın pul gizlətdiyi və pulları “Parabank”ın “Nəsimi” filialında qeyri-qanuni şəkildə saxladığı, həmçinin bununla bağlı bir çox cinayət hadisələrinin törədilməsi, eləcə də bir nəfərin müəmmalı şəkildə ölümü ilə bağlı məlumatlar verilmişdi.

Məlumatlarda bildirilirdi ki, “Parabank”da “Kia Motors Az” MMC-nin hesabatlarında yer almayan vəsaitləri saxlanılır. Həmin pullardan pul köçürmələrində istifadə olunub, tanış adamlara iri məbləğdə kredit kimi verilərək dövriyyəyə buraxılıb. Yəni bu pul, eləcə də ondan əldə edilən gəlirlər dövlətdən gizlədilib. S.Səfərovun bankdakı etibarlı şəxsi Fərhad Abbasov isə həmin məbləğin 1 milyon manata yaxınını gizli yolla götürərək xərcləyib və 2012-ci ilin yayında müəmmalı şəkildə ölüb. Məhz bu müəmmalı ölümdən sonra 40 milyonluq dələduzluq ifşa olunub, "Kia Motors Az" MMC-də cinayət işi başladılıb, onun rəhbəri Səxavət Səfərovun digər obyekt və müəssisələrində isə ciddi yoxlamalara start verilib" - deyə məlum qalmaqal zamanı ölkə mediası yazırdı.

Xatırladaq ki, 1991-2016-cı illərdə “Parabank” adı ilə fəaliyyət göstərən bank 2016-cı ildə ləğv edilib və elə həmin tarixdən “Parabokt” adı ilə bank olmayan kredit təşkilatına (BOKT) çevrilib.

Hazırda onun səhmdarları arasında Əşrəf Səfərov başda olmaqla eyni soyada malik bir neçə şəxs var.

Səhmdarlardan 5-nin isə Quliyev soyadı daşıması diqqət çəkir.

Yeri gəlmişkən, bu ilin avqust ayınadək Əşrəf Səfərovun “KİA Motors Az” MMC-də direktor postu tutduğu, lakin təxminən 1 ay öncə vəzifəsindən ayrıldığı, onun yerinə isə qardaşı Faiq Səfərovun təyin edildiyinə dair iddialar var. Lakin adı çəkilən şirkət həmin iddialara hələ ki, aydınlıq gətirməyib.

O ki, qaldı qalmaqallı iş adamı ilə milyonlarla manatlıq icarə müqaviləsi bağlayan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə, bu qurum Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərir. Agentliyin İdarə Heyətinin sədri Anar Bayramovdur. O, həmin vəzifəyə 2021-ci ildə təyin edilib.

***Toğrul Əliyev***

# Naxçıvan Ali Məclisinə deputat seçilən vəzifəli şəxslər

***Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası Ali Məclisə keçirilən seçkilərin ilkin nəticələrini ictimaiyyətə təqdim edib. 45 seçki dairəsi üzrə lider namizədlərin adları açıqlanıb.***

"Unikal"ın məlumatına görə, Naxçıvan Ali Məclisinə deputat seçilənlər arasında vəzifəli şəxslər də var. Onların siyahısını təqdim edirik.

Naxçıvanın baş nazirinin müavini Məmmədov Bəxtiyar İbrahim oğlu

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrin köməkçisi Məmmədov Ramiz Gülməmməd oğlu

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqlar Şurasının sədri Abdullayev Qəzənfər İsmayıl oğlu

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sektor müdiri Bayramov Mübariz Rəcəb oğlu

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Novruzov Azad Sevindik oğlu

Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi Publik Hüquqi Şəxsin direktoru Bayramova Ülkər İmamqulu qızı

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyasının sədri Əhmədova Şəhla Hüseyn qızı.

# Kəmaləddin Heydərovdan Rza Xudiyevin yerinə təyinat

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Yanğınsöndürmə Qərargahının rəisi polkovnik Taleh Babayev vəzifəsindən azad edilib.***

"Unikal" Qaynarinfo-ya istinadən xəbər verir ki, bununla bağlı nazir, general-polkovnik Kəmaləddin Heydərov müvafiq əmr imzalayıb.

Nazirin digər əmri ilə Taleh Babayev Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini təyin olunub.

Qeyd edək ki, T.Babayev bir müddət əvvəl vəzifəsindən azad edilən Dövlət Yanğından Mühafizə Xidmətinin rəis müavini polkovnik Rza Xudiyevin yerinə gətirilib.

# Baş Prokurorluq İsmayıllıdakı əməliyyatın detallarını açıqladı

***İsmayıllı Rayon İcra Hakimiyyəti Başçısının İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Süleymanov Əlişir Muxibbi oğlunun və rayonunun Diyallı bələdiyyəsinin sədri vəzifəsini icra edən sədr müavini Surxayev Cahangir Məhyəddin oğlunun qanunsuz əmələrə yol verməsi barədə daxil olmuş məlumatlar əsasında həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işləri başlanmışdır.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, istintaq-əməliyyat tədbirləri ilə Əlişir Süleymanovun xidməti vəzifələrinin icrası ilə bağlı İsmayıllı şəhəri ərazisində yerləşən qeyri-yaşayış sahələrində müvafiq tikinti işlərinin aparılmasına maneə yaradılmaması və işlərin davam etdirilməsinə şərait yaradılmaqla himayədarlıq göstərilməsi müqabilində ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə pul vəsaitini rüşvət qismində istəməsinə və almasına əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Cahangir Surxayevin vəzifə səlahiyyətlərini aşaraq ona müraciət etmiş şəxsə kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin saxta sənədlərin tərtib edilməsi yolu ilə icarəyə verilməsi müqabilində həmin şəxsdən hissə-hissə olmaqla külli miqdarda pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilmişdir.

Cinayət işləri üzrə toplanmış ilkin sübutlar əsasında Əlişir Süleymanova Cinayət Məcəlləsinin 311.3.2 və 311.3.3 (təkrar və külli miqdarda rüşvət alma) maddələri, Cahangir Surxayevə isə həmin Məcəlləsinin 309.1 (vəzifə səlahiyyətlərini aşma), 311.3.3 (külli miqdarda rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilmiş, müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında onların hər ikisi barəsində Binəqədi Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, Ə.Süleymanov 1992-2016-cı illərdə Azərbaycan ordusunda müxtəlif hərbi vəzifələr üzrə xidmət edib. O, 2016-cı ildə polkovnik-leytenant rütbəsi ilə ehtiyata buraxılıb.

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:59 PM Page 9



# Baş nazir büdcəyə artıq ödəmələrlə bağlı qərar verdi



***Nazirlər Kabineti "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, bundan sonra, büdcəyə artıq ödəmələr işsizlikdən sığorta haqqı ilə bağlı borcların, hesablanmış faizlərin və işsizlikdən sığorta haqlarını ödəməkdən yayınma və tətbiq edilmiş inzibati cərimələr və maliyyə sanksiyaları üzrə borcların ödənilməsinə yönəldilməyəcək. Eyni zamanda büdcəyə artıq ödəmələr məcburi dövlət sosial sığorta haqları, hesablanmış faizlər, tətbiq edilmiş maliyyə sanksiyaları və inzibati cərimələr üzrə borcların ödənilməsinə yönəldilməyəcək.

# Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları təsdiq edildi



***Dəmiryol nəqliyyatı ilə yüklərin daşınması Qaydaları təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, ümumi istifadədə olan dəmiryol nəqliyyatı ilə daşımaların təşkilati və texniki xüsusiyyətləri ilə bağlı bu Qaydalar və tərəflər arasında bağlanılmış müqavilə ilə tənzimlənməyən məsələlər infrastruktur sahibi və daşıyıcı tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq tənzimlənir.

Yükün daşınması daşıyıcı tərəfindən həyata keçirilir.

Dövlət sirrini təşkil edən məlumatların olduğu sifarişlər istisna olmaqla, dəmiryol nəqliyyatı ilə yük daşınmasının həyata keçirilməsi üçün yükgöndərən tərəfindən daşıyıcının internet informasiya ehtiyatı üzərindən daşıyıcıya yükdaşıma sifarişi təqdim edilir.

Daşıyıcı (daşıyıcı eyni zamanda infrastruktur sahibi olduğu hallar istisna olmaqla), ona təqdim edilmiş yük daşıma sifarişinə 3 (üç) iş günü müddətində baxır və bu Qaydalarda nəzərdə tutulmuş hallardan hər hansı biri olmadıqda həmin sifarişi razılaşdırmaq üçün infrastruktur sahibinə onun elektron platforma üzərindən göndərir.

# Agentlikdən "orden"-"medal" paylayan QHT-lərə xəbərdarlıq



***"Unikal"ın məlumatına görə, bəyanatda deyilir ki, son zamanlar bir sıra QHT-lərin özlərindən orden və medallar təsis etməsi və müxtəlif şəxsləri, xüsusilə şəhid ailələrinin üzvlərini, o cümlədən vəzifəli şəxsləri, dövlət məmurlarını bu orden və medallarda təltif etməsi müşahidə edilir.***

"Bildiririk ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən, orden və medal - vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və medallar (o cümlədən "orden" və ya "medal" ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

İctimaiyyəti diqqətli olmağa çağırır, bu cür əməllərlə məşğul olan QHT-ləri qanunla qadağan olunan fəaliyyətdən çəkinməyə, məsələnin hüquqi məsuliyyətini dərk etməyə dəvət edirik", - deyə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin bəyanatında vurğulanıb.

# Qalmaqallı biznesmen-deputatın mandatsız qalmasının pərdəarxası

## İqbal Məmmədov deputatlıqdan sonra ən məşhur obyektini də itirir? - Ortada sensasion iddialar dolaşır

***Sentyabrın 1-də keçirilən parlament seçkilərinin ardınca Milli Məclisin yeni tərkibi müəyyənləşib. Hələlik rəsmi nəticələr açıqlanmasa da , bəzi deputatların mandatsız qalacağı dəqiqdir. Onların arasında sabiq millət vəkili İqbal Məmmədov da var. Məsələ burasındadır ki, İ.Məmmədov hakim Yeni Azərbaycan Partiyasının deputatlığa namizədlər siyahısından kənarda saxlanılmışdı. Bir çoxları üçün bu, həm gözlənilməz olmuş, həm də təəccüblə qarşılanmışdı.***

İndi isə sabiq biznesmen-deputata məxsus olan Lerikdəki "Relax" İstirahət Mərkəzinin əl dəyişdirəcəyi barədə xəbərlər aktuallaşıb. Əslində bənzər xəbər hələ parlament seçkilərindən öncə yayılmışdı. Həmin vaxt Qaynarinfo-nun yaydığı məlumatda bildirilirdi ki, yay mövsümü bitdikdən sonra "Relax"ın fəaliyyəti yeni yaradılcaq törəmə şirkət tərəfindən qurulacaq.

İddialar belədir ki, şirkətin qanuni təmsilçisi və baş direktoru dəyişəcək. Hazırda müəssisədə təhvil-təslim işlərinin aparılması üçün proseslər gedir.

Maraqlıdır ki, sabiq deputat və biznesmenin millət vəkilliyinə namizədliyinin yenidən irəli sürülməməsindən öncə də ölkə mediası "Relax"ın fəaliyyətinə diqqət çəkərək onu İ.Məmmədovun növbəti dəfə mandat qazanması yolunda maneə olaraq qiymətləndirmişdi. Məsələn, yenicag.az yazmışdı ki, adı çəkilən istirahət mərkəzində vergi əməkdaşlarına hücum edilməsi, vergidən yayınma halları, özünün lerikli olmasına baxmayaraq, yerli əhali ilə qarşıdurmaları İqbal Məmmədovun yenidən deputat olması şansını sıfıra endirir. Sitat: "Həmçinin ərəb turistlərin gəlməsindən sonra "Relax" istirahət mərkəzinin "ultra əyləncə məkanı"na çevrilməsi və bu məkanda "partilər"in təşkil olunması mühafizəkar rayon əhalisi arasında ciddi narazılıq yaradıb. Bu narazılıqdan doğan söz-söhbətin olması İ.Məmmədovun deputatlıq arzusunun üzərindən xətt çəkir, eləcə də əhali onun yenidən deputat seçilməsini istəmir".

Deputatlığı müddətində İqbal Məmmədovun adı müxtəlif qalmaqallarda hallanıb. Onunla bağlı ən qalmaqallı xəbər ləğv edilən Vergilər Nazirliyinin 6 saylı Ərazi Vergilər Baş İdarəsinin əməkdaşlarının "Relax"da operativ vergi nəzarəti tədbirləri keçirmək istəyərkən deputatın oğlu Mirhəmid, qardaşı oğlu Orxan, bacısı oğlu Pərviz və onların dostları tərəfindən döyülmələri olub.

Daha bir qalmaqallı xəbər isə "Relax"da çayçı işləyən Lənkəran rayonu Təngivan kənd sakini, 1980-ci il təvəllüdlü Sücayev Anar Hüseyn oğlunun meyitinin işlədiyi çayxanadan təqribən 20 metr aşağıda axan dağ çayında aşkar olunması olub.

Deputatın 2017-ci ildə "Lerik Broyler" MMC-sində baş verən partlayış nəticəsində Vüqar Abbasov adlı şəxs ölüb, xeyli sayda insan yaralanıb.

İqbal Məmmədov bir milyon manat dəyəri olan mənzillərinin əlindən alınması, həmçinin müxtəlif fotolarla şantaj edilməsi ilə də gündəmə gəlib.

Hazırda İqbal Məmmədovun qeyri-rəsmi sahibi olduğu şirkətlərin dövlətə milyonlarla vergi borcunun olduğu deyilir. Deputatın qardaşı və qohumlarının rəhbərlik etdiyi şirkətlərin vergi borcu 10 milyon manatdan çoxdur.

Belə ki, "Kaspi Yıldız" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsinin 9.393.819,13 manat, "Lerik Broyler" MMC-nin 22.560,79 manat, həmçinin digər şirkətlərinin də külli miqdarda vergi borcu var.

Bütün bu xəbər və iddiaların fonunda görünən odur ki, İqbal Məmmədovun deputat mandatını itirməsindən sonra şəxsi biznesini də böyük ölçüdə itirməsi sürpriz qarşılanmayacaq. Söhbət ilk növbədə - yazının əvvəlində də vurğuladığımız kimi, - "Relax" istirahət mərkəzindən gedir.



Bəs sabiq deputat və biznesmenə qarşı münasibətin qəfildən, üstəlik, 180 dərəcə dəyişməsinin səbəbi nədir?

Hələ ki, həmin suala birmənalı cavab vermək çətindir. Lakin bir çoxları onun və yaxın ətrafının adının mütəmadi şəkildə müxtəlif qalmaqallarda hallanmasını mühüm səbəb kimi göstərirlər. "Xüsusilə deputatlarla bağlı belə qalmaqallar Milli Məclisin nüfuzunu zərbə altında qoyur, eyni zamanda cəmiyyətdə məmurlara, müxtəlif vəzifə sahiblərinə qarşı acıqlı, qəzəbli münasibəti daha da alovlandırır.Bu səbəbdən, belə fiqurların tədricən siyasi səhnədən çəkildiyini müşahidə edirik. Yaxın keçmişdə deputat, yaxud məmur olaraq adı cürbəcür skandallara qarışmış xeyli şəxs göstərmək mümkündür ki, indi ortada görünmürlər. Kimlər ki, vətəndaşla münasibətləri düzgün qurmaqda çətinlik çəkir, onlar postları, mandatları ilə vidalaşmaq məcburiyyətində qalıblar. İqbal Məmmədovu da artıq həmin siyahıya aid etmək mümkündür" deyə adının çəkilməsini istəməyən bir mənbə əməkdaşımızla söhbətində bildirib.

Onu da deyək ki, sabiq deputat və biznesmen istər hakim partiya tərəfindən namizədliyinin yenidən irəli sürülməməsi, istərsə də məşhur obyektinin - "Relax"ın "əl dəyişdirəcəyi" barədə hələlik heç bir açıqlama verməyib. Onun bu susqunluğu isə ya ehtiyatlılığı ilə izah edilə bilər, ya da haqqındakı iddialarda həqiqət payının çox olması ilə...

***Sənan Mirzə***

# Daha bir rayonun icra başçısının kreslosu "laxlayır"

## İsmayıllıdakı anti-korrupsiya əməliyyatı Nahid Bağırov üçün nə vəd edir?

***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları İsmayıllı rayonunda əməliyyat keçirib. Bakıvaxtı.az xəbər verib ki, Bələdiyyə və yerli İcra hakimiyyətinin vəzifəli şəxsləri saxlanılıb. "Qafqazinfo"nun məlumatına görə işə keçirilən əməliyyat nəticəsində Rayon İcra Hakimiyyəti başçısının İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Əlişir Süleymanov və kəndlərdən birinin bələdiyyə sədri saxlanılıb.***

"Hazırda onların ifadələri alınır. Hələ ki, ittiham verilməyib" - xəbərdə deyilir.

Xatırladaq ki, İsmayıllı şəhərinin bundan əvvəlki icra nümayəndəsi Məhərrəm Əhmədov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs edilmişdi. 2021-ci ildə isə onun cinayət işi üzrə məhkəmə prosesi başa çatmışdı. Məhz bu zaman aydın olmuşdu ki, aparılmış tədbirlərlə Məhərrəm Əhmədov tərəfindən qanunsuz ödənişlər müqabilində "Koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Nazirlər Kabinetinin 2 aprel 2020-ci il tarixli 124 nömrəli Qərarına zidd olaraq rayon ərazisində hüquqi şəxs və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə, eləcə də müvafiq kateqoriyalara aidiyyəti olmayan digər fiziki şəxslərə işləmələri barədə icazə.e-gov.az portalında qeydiyyatdan keçməyən arayışların verilməsi, habelə aztəminatlı ailələr üçün dövlət tərəfindən ayrılmış ərzaq sovqatlarının mənimsənilməsinə dair əsaslı şübhələr müəyyənləşib. Nəticədə İsmayıllı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binasına və Məhərrəm Əhmədovun Mican kəndindəki yaşadığı evə baxış keçirilib. Oradan müxtəlif fiziki şəxslərə məxsus plastik bank kartları aşkarlanıb. Müəyyən edilib ki, Məhərrəm Əhmədov öz yaxın qohumlarının adlarına formal olaraq rəsmiləşdirərək müxtəlif sayda plastik bank kartlarının alınmasına nail olub. O, ümumilikdə 2016-2020-ci illər ərzində 12.400 manat məbləğində vəsaiti mənimsəyib.

Baxış zamanı nağd pul, ayrı-ayrı şəxslərin adlarına guya işləmələri barədə qanunsuz arayışlar və onlara dair qeydlər, habelə aztəminatlı ailələrə yardım məqsədilə nəzərdə tutulmuş ərzaq bağlamaları və digər əhəmiyyətli sənəd və əşyalar aşkar edilib.

Nəticədə istintaq orqanı tərəfindən Məhərrəm Əhmədovun barəsində Cinayət Məcəlləsinin 179.2.3-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və ya israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, yəni vəzifəli şəxsin xidməti vəzifələrinin icrası ilə əlaqədar özü və ya üçüncü şəxslər üçün qanunsuz üstünlük əldə etmək məqsədilə öz qulluq səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməsi və ya qulluq mənafeyi tələb etdiyi halda istifadə etməməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyətin və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurduqda) və 311.3.2-ci (təkrar rüşvət alma) maddələri ilə ittiham elan edilmiş, məhkəmənin hökmü ilə 8 il 6 ay müddətinə azadlıqdan məhrum olunmuşdu.

Onu da yada salaq ki, 2020-ci ilin martından İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı postunu Nahid Bağırov tutur. M.Əhmədovun məhz bu təyinatdan bir qədər sonra həbs olunması Bağırovun rayonda rüşvət və korrupsiyaya qarşı sərt mövqe nümayiş etdirəcəyinə işarə kimi başa düşülürdü. Lakin indi də Əlişir Süleymanovun Məhərrəm Əhmədovla eyni aqibəti yaşaması haqlı suallara yol açır. Belə çıxır ki, İsmayıllıya 4 il öncə yeni başçı təyinatı əslində adı çəkilən rayonda çox şeyi dəyişdirməyib.

Qeyd edək ki, bəzi qaynaqlar saxlanılan Ə.Süleymanovun icra başçısına yaxın şəxs olduğunu bildirirlər. O da vurğulanır ki, İsmayıllıda hansısa məmurun Nahid Bağırovdan xəbərsiz ciddi qanunsuzluqlara qol qoyması ağlabatan deyil. Bu səbəbdən də Ə.Süleymanovun ətrafında cərəyan edən hadisələrin icra başçısı üçün də xoşagəlməz nəticələrə yol açması istisna edilmir.



Məlumat üçün deyək ki, hələ N.Bağırov yenicə icra başçısı olarkən bir çoxları onun bu vəzifə üçün kifayət qədər təcrübə sahibi olmadığını vurğulayırdılar. Belə ki, 1999-cu ildə Azərbaycan Beynəlxalq Universitetinin Hüquq fakültəsini, 2006-cı ildə isə Bakı Dövlət Universitetinin Beynəlxalq Hüquq Fakültəsini bitirən 45 yaşlı Bağırovun tərcümeyi-halında ən diqqətçəkən məqamlar 1998-2000-ci illərdə Bakı şəhəri Sabunçu rayon məhkəməsinin katibi, 2001-2005-ci illərdə "Sir" hüquq şirkətinin vitse-prezidenti, 2009-cu ildən etibarən isə Azərbaycan Turizm Assosiasiyasının idarə heyətinin sədri vəzifələrini tutmasıdır. Bir sözlə, Nahid müəllimin dövlət işlərində təcrübəsinə şübhə ilə yanaşanların arqumentləri ilə razılaşmamaq mümkün deyil.

İstənilən halda ölkənin ali rəhbərliyi Bağırova mühüm bir etimad göstərib və o, İsmayıllıya icra başçısı təyin edilib.

Lakin rayonda 4 il öncəki korrupsiya həbslərini xatırladan məlumatların yayılması aradan keçən müddətdə dəyişən çox şeyin olmadığına dair təəssürat yaradır. Bunun N.Bağırova hansısa xoşagəlməz sürprizlər vəd edib-etməyəcəyini isə zaman göstərəcək. Ona görə də yaxşısı budur ki, gözləyək...

Son olaraq vurğulayaq ki, son aylarda Azərbaycanın bir neçə rayonunun icra başçısı postundan kənarlaşdırılıb və həmin prosesin xüsusilə sentyabrın 1-də keçirilmiş parlament seçkilərinin ardından sürətlənəcəyinə dair ehtimallar səsləndirilir.

***Toğrul Əliyev***

# Kamran Əliyevdən separatçıların işi ilə bağlı açıqlama



***"Hazırda cinayət işinin materialları ilə həm təqsirləndirilən şəxslər, həm də zərərçəkmişlər tanış olurlar. Bilirsiniz ki, bu cinayət işində zərərçəkənlər çoxdur".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın baş prokuroru Kamran Əliyev Şərq İqtisadi Forumu (EEF) çərçivəsində Qarabağ separatçılarının işi ilə bağlı təfərrüatları Rusiya mətbuatına açıqlamasında deyib.

O, istintaqın yekunlaşdığını və yaxın vaxtlarda materialların məhkəməyə təqdim olunacağını qeyd edib: "Bütün bu istintaq-əməliyyat tədbirləri həyata keçirildikdən sonra iş beynəlxalq standartlara və Azərbaycan cinayət qanunvericiliyinə uyğun olaraq, mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndəriləcək".

Kamran Əliyev həmçinin qeyd edib ki, bu illər ərzində Azərbaycanın Baş Prokurorluğu tərəfindən 15 separatçıya qarşı cinayət işi başlanıb və onlar beynəlxalq axtarışa verilib. 2023-cü ilin sentyabrında keçirilən əməliyyatdan sonra onlar saxlanılaraq Bakıya aparılaraq istintaqa təhvil verilib. Onlara qarşı terrorizm, terrorçuluğu maliyyələşdirmə, qanunla nəzərdə tutulmayan silahlı birləşmə və qruplaşmalar yaratmaq, terrorizm məqsədi ilə təlimlər keçirmək ittihamları irəli sürülüb.

Bu ilin iyununda Bakı onların işi üzrə istintaqın başa çatdığını elan edib.

***Ağarza Elçinoğlu***

# Peşə məktəblərinə qəbulun nəticələri açıqlandı



***Bu gün peşə təhsil pilləsi üzrə tələbə qəbulunun II mərhələsinin nəticələri açıqlanıb.***

Bu barədə "Unikal"a Peşə Təhsili üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, müsabiqədə iştirak edən şəxslərin mobil telefonlarına nəticə barədə SMS göndərilib. Qəbul olan şəxslər qəbul olunduqları ixtisas və təhsil müəssisəsi barədə məlumatları portal.edu.az platformasındakı "şəxsi kabinet" bölümündən əldə edə bilərlər.

Peşə təhsil müəssisələrinə tələbə qəbulunun II mərhələsi çərçivəsində müsabiqədən keçən şəxslər 5 -10 sentyabr (saat 17:00-dək) tarixlərində aşağıda qeyd olunan sənədləri qəbul olunduğu peşə təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər:

- attestatın əsli;
- sağlamlıq və fiziki inkişafı özündə əks etdirən müvafiq formalı tibbi arayış;
- sistemdən (şəxsi kabinetdə) avtomatik çıxarılan ərizə nümunəsi;
- şəxsiyyət vəsiqəsinin surəti;
- 3 x 4 sm ölçüdə dörd ədəd fotoşəkil;
- hərbi bilet və ya çağırışçı şəhadətnaməsi;
- güzəştli şərtlərlə qəbul edilən şəxslər üçün müvafiq təsdiqedici sənəd.

Qəbulun II mərhələsində müsabiqədən keçən şəxsin qəbul olunduğu peşə təhsil müəssisəsində qeyd edilən tarixlərdə qeydiyyatdan keçməməsi və ya sənədlərini tam təqdim etməməsi onun həmin ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir.

Birinci və ikinci mərhələdə www.portal.edu.az platforması vasitəsilə ümumilikdə 39000 nəfərdən çox namizəd peşə təhsili almaq üçün müraciət edib.

Qeyd edilib ki, 2024/2025-cü tədris ili üzrə tələbə qəbulu 84 peşə təhsili müəssisəsində 136 ixtisas olmaqla 13454 plan yeri üzrə aparılıb. İkinci mərhələdə www.portal.edu.az platforması vasitəsilə 11793 nəfərdən 39101 müraciət daxil olub.

Peşə təhsil müəssisələrində boş qalmış plan yerlərinə tələbə qəbulunun apelyasiya mərhələsinin 12-13 sentyabr tarixlərində baş tutması planlaşdırılır.

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:59 PM Page 11



# Məktəblərdə ilk dərs bu mövzuda olacaq



***Bu tədris ilinin ilk dərsi "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr olunacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı elm və təhsil naziri Emin Əmrullayev əmr imzalayıb.

Ümumi təhsil müəssisələrində 2024-2025-ci tədris ilinin təşkili barədə əmrə əsasən, məktəblərin II-XI siniflərində ilk dərs "Yaşıl dünya naminə həmrəylik" mövzusuna həsr ediləcək.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

# Metal tullantılarının ixrac rüsumları artırıldı

***Nazirlər Kabineti 17 noyabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, metal tullantılarının mövcud ixrac rüsumları artırılıb, həmçinin, ixrac rüsumu tətbiq olunmayan bəzi metal qırıntılarına ixrac rüsumları təyin edilib.

## Payız yorğunluğundan necə qaça bilərik?

Payızın gəlişi ilə havalar soyumağa başlayır. İsti yay günlərindən sərin havaya keçid bədən sağlamlığına da təsir edir. Günlər qısalmağa başlayanda və havalar getdikcə soyuduqca payız yorğunluğu baş verir.

"Unikal" payız yorğunluğu ilə mübarizə aparmağın yollarını təqdim edir:

### Balanslı və sağlam qidalanma

Yaz aylarına keçdiyiniz zaman pəhrizinizi də nəzərdən keçirməlisiniz. Enerji səviyyəsini artırmaq üçün vitamin və minerallarla zəngin qidalar qəbul etməyə üstünlük verməK lazımdır. Xüsusilə meyvə, tərəvəz, tam taxıl və zülalla zəngin qidaları istehlak etməyə üstünlük vermək lazımdır.

Su bədənin enerji səviyyəsini saxlamasına kömək edir. Hər gün kifayət qədər su için.

### Keyfiyyətli yuxu

Yuxu keyfiyyəti bədənin sağlamlığı üçün olduqca vacibdir. Özünüzü yaxşı hiss etmək və dinamik oyanmaq üçün hər gecə eyni vaxtda yatmağa çalışın. Keyfiyyətli və adekvat yuxu enerji səviyyəsini artırır. Hər gecə 7-8 saat yatıb eyni vaxtda oyanmaqla bu rejimi saxlamaq mümkündür.

### İdman

Fiziki fəaliyyət enerji səviyyənizi artıra və əhvalınızı yaxşılaşdıra bilər. Müntəzəm gəzintilər və ya yüngül məşqlər gərəklidir.

### Stressdən uzaq durmaq

Stressdən qaçmaq və istirahət üsullarını tətbiq etmək (meditasiya, dərin nəfəs alma kimi) enerji səviyyəsini yaxşılaşdıra bilər.

### Kofein və şəkəri məhdudlaşdırmaq

Həddindən artıq kofein və şəkər istehlakından çəkinin. Bu maddələr qısa müddətli enerji təmin etsə də, uzun müddətdə yorğunluğa səbəb ola bilər.

***Zərifə Nağıyeva***

# Təhvil götürülən silah-sursatın sayı açıqlandı

***Sentyabrın 4-də polis əməkdaşları Bakı və rayonlarda 1 tapança, 2 qumbara, 10 tüfəng və 43 ədəd müxtəlif çaplı patron təhvil götürüblər.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, həmçinin ötən gün polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə qanunsuz saxlanılan 2 tapança və 2 tüfəng də aşkar edilərək götürülüb.

Qeyd edək ki, qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində tədbirlər davamlı olaraq həyata keçirilir.

# Tikinti oliqarxlarının yeni soyğunçuluğu

## Təzə binalarda parklanma qiymətlərini kimlər və hansı məntiqlə bahalaşdırıb? - İlginc təfərrüatlar....

***Yola salmaq üzrə olduğumuz həftə növbəti bahalaşma xəbəri gəldi. Məlum oldu ki, paytaxtda inşa olunan yeni tikilmiş binalarda parklanma qiymətləri bahalaşıb. Bu barədə "Sputnik Azərbaycan"-a sakinlər məlumat verib.***

Paytaxt sakinlərinin sözlərinə görə, parklanma yeri olan yeni tikililərdə aylıq icarə qiyməti 200 manatdan 250 manata çatıb. Hətta konkrtet nümunə də var: "Sabah Residence" yaşayış kompleksində parklanma qiyməti 250-300 manat olub.

Sakinlər bildirib ki, aylıq icarə haqqı baha olduğundan, onlar avtomobillərini yaxınlıqdakı ərazilərdə saxlamalı olurlar. Parklanma yerlərinin satış qiyməti isə yerləşdiyi yerdən asılı olaraq 35-50 min manatdır.

"Sabah Residence" yaşayış kompleksindən isə yeraltı dayanacaq qiymətlərinin 250-300 manat olduğunu təsdiqləyibləр. Bildiriblər ki, illik icarə ödənişlərində endirimlər tətbiq edilir. Amma sakinlərə xüsusi güzəştlər yoxdur.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev mövzunu şərh edərkən deyib ki, bəzi binalarda MTK rəhbərliyinin özü, ya da zirzəmilərindəki parklanma yerlərini almış şəxs icarəyə verir. Onun sözlərinə görə, yeni inşa olunan çoxmənzilli binaların parklanma yerlərinin olması müsbət haldır. Lakin orada qiymətlər elə həddə qoyulmalıdır ki, sakinlər avtomobillərini yeraltı dayanacaqlarda saxlaya bilsinlər. "Tikinti şirkətləri və özəl mülkiyyətçilər icarə haqqlarını müəyyən etməkdə sərbəstdirlər. Bununla belə ən azı binada yaşayan sakinlərə güzəştlər edilməlidir. Özəl parklanma qiymətləri ilə bağlı konkret tariflər olmadığından, mülkiyyətçilər və MTK-lar binanın yerləşdiyi zonaya əsasən sərbəst qiymət müəyyən edirlər" - ekspert vurğulayıb.

Mütəxəssis vurğulayıb ki, 250-300 manat dayanacaq qiyməti çox fantastik məbləğdir: "Az qala kirayə ev qiymətinədir. Təbii ki, hər sakinin bu qiyməti ödəyib avtomobilini yeraltı dayanacaqda saxlamağa maddi imkanı çatmayacaq".

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı isə bildirib ki, Prezidentin imzaladığı fərmanla Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) özəl parklanma yerlərinin təşkili və idarəedilməsinə müdaxilə edə bilər.

Bununla belə, AYNA-dan bildiriblər ki, parklanma yerlərində tariflərə müdaxilə səlahiyyətləri yoxdur. Dövlət tərəfindən təşkil edilmiş parklanma yerlərində belə tariflər Nazirlər Kabineti tərəfindən tənzimlənir.

"Bakıda çoxmənzilli yaşayış binalarının zirzəmilərindəki parklanma yerlərinin qiymətində bahalaşma ilk növbədə MTK-ların tamahkarlığının növbəti bariz nümunəsidir. Ölkədə tikinti oliqarxlarının sanki toxunulmazlığı var, əksəriyyəti nə göydələnlərin inşası, nə mənzillərin satışı zamanı, nə də ondan sonrakı mərhələdə vətəndaşların maraqlarını nəzərə alırlar. Bu şirkətləri öz maraqlarından başqa heç nə düşündürmür" - bunu isə adının çəkilməsini istəməyən ekspert "Unikal"a açıqlamasında deyib.

"Hələ bu ilin əvvəllərində məlumat yayılmışdı ki, paytaxtdakı yeni yaşayış binalarının zirzəmilərindəki parklanma yerlərinin qiyməti "ceyran belinə" qalxıb. Maraqlıdır ki, bu bahalaşma 1 aprel tarixindən etibarən Azadlıq meydanındakı və Qış bulvarındakı yeraltı dayanacaqda avtomobil park etmək üçün yeni tariflər tətbiq olunacağının açıqlanmasından dərhal sonraya təsadüf etmişdi. Belə görünür ki, əksəriyyəti iri məmurlarla ya birbaşa, ya da dolayı yolla bağlı olan tikinti oliqarxları bunu əsas götürüb onsuz da real qiymətindən qat-qat baha mənzil satdıqları vətəndaşları indi də inşa etdikləri binaların zirzəmilərindəki parklanma yerlərinə fantastik qiymət qoymaqla soymaq fikrinə düşüblər" - həmsöhbətimiz bildirmişdi.



Onu da deyək ki, Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 35-ci maddəsinə əsasən, yaşayış binasının tərkib hissəsinin mülkiyyətçilərinə həmin binada mənzillərin hissəsi olmayan və binada birdən artıq sahəyə xidmət etmək üçün nəzərdə tutulan obyektlər (o cümlədən, mənzillərarası pilləkən meydançaları, pilləkənlər, liftlər, lift şaxtası və ya digər şaxtalar, dəhlizlər, texniki mərtəbələr, çardaqlar, mühəndis qurğuları olan zirzəmilər, həmin binada birdən artıq sahəyə xidmət edən avadanlıq (texniki zirzəmi), və s.) ümumi paylı mülkiyyət hüququ ilə mülkiyyətçilərə məxsusdur. Həmçinin, çoxmənzilli binada ümumi mülkiyyətin azaldılmasına yalnız həmin binanın yenidən qurulması yolu ilə binanın bütün sahə mülkiyyətçilərinin razılığı ilə yol verilir. Göründüyü kimi, mövcud qanunvericiliklə çoxmənzilli binanın zirzəmi hissəsində olan avtodayanacaqlar mənzil mülkiyyətçilərinin ümumi mülkiyyətinə aid edilməyib. Yəqin ki, tikinti oliqarxları da bundan faydalanıb özləri üçün yeni qazanc mənbəyi yaratmaq qərarına gəliblər.

Hüquqşünasların fikrincə, MTK-ların məlum soyğunçuluğuna məruz qalmamaq üçün mənzil mülkiyyətçiləri ilk növbədə çoxmənzilli binanın layihə sənədinə diqqət yetirməlidirlər. Əgər sözügedən sənəddə zirzəmi hissəsi avtodayanacaq kimi layihləndirilibsə, dayanacaqların satışı həyata keçirilə bilər və həmin dayanacaqlara görə daşınmaz əmlakın dövlət reyestrindən çıxarış alınması mümkündür...

***Toğrul Əliyev***

## 5.3.7. İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

# Laçına Böyük Qayıdış!

## Kamal Allahverdiyev: "Laçında həyat demək olar ki, öz axarına qayıdıb"



***İşğaldan azad olunmuş torpaqlarımıza qayıdış davam edir. Böyük Qayıdış proqramı çərçivəsində bir sıra ərazilərdə tikinti işləri sürətlə davam etdirilir. Onlardan biri də füsunkar təbiəti ilə dillərə dastan olan Laçın şəhəridir. Laçına həyat yenidən qayıdır.***

Laçın şəhərindən sonra kəndləri də yenidən qurulur. Zabux, Sus kəndlərindən sonra Laçın Bəylik kəndində tikinti işləri yekunlaşmaq üzrədir. 35 hektar ərazidə 91 fərdi yaşayış evinin tikintisi həyata keçirilir.70-dən çox ev demək olar ki, hazırdır. Artıq fasad örtüyündə son tamamlama işləri həyata keçirilir. Digər ərazilərdə isə geridə qalan 91 evin tamamlanması üçün tikinti işləri davam etdirilir ki, onların da fasad örtüyündə işlər tamamlanmaq üzrədir. Eyni zamanda burada 1 ədəd klub-icma, 1 ədəd ticarət mərkəzi və 1 ədəd marketin inşası həyata keçirilir. Tikilən fərdi yaşayış evlərindən 13-ü 2 otaqlı, 50 ədədi 3 otaqlı, 15-i 4 otaqlı,13-ü isə 5 otaqlıdı. Bununla yanaşı, burada qaz, su, elektrik xəttləri tamamilə yenilənib, asvalt örtüyü yenilənəcək. Bəylikdə bəylərə layiq yaşıllıq ərazilər salınacaq və eyni zamanda çay ərazisində olduğu üçün bir qisim hissələrdə bəndlənmə işləri həyata keçiriləcək. Digər ərazilərdə evlərin tikintisində olduğu kimi bu ərazilərdə də evlərin üst hissəsində Günəş panellərindən istifadə olunacaq. Bu, həm ekoloji baxımdan yaxşıdı, eyni zamanda sakinlər üçün böyük bir sərfiyyatdır. İnşası davam edən evlərin tikintisində termoizoliyasiya sistemlərindən istifadə olunur. Tezliklə Laçının bütün kəndlərində evlərdən işıq, hənirti səsi gələcək.

Artıq Laçında həyat demək olar ki, öz axarına qayıdıb. Bugünkü həmsöhbətimiz isə öz ata-baba yurdunun işığını yandıran Kamal Allahverdiyevdir. Laçında onu "Bal Kamal" çağırırlar. Böyük Qayıdış proqramı çərçivəsində doğma yurduna dönən Kamal artıq öz işinin-gücünün başındadır.

1983-cü ildə Laçın şəhərində dunyaya gələn Kamalın ən gözəl uşaqlıq illəri elə Laçında keçib. 1992-ci ildə işğaldan sonra Laçını tərk etməyə məcbur olan Allahverdiyevlər ailəsinin xöşbəxt günləri də elə Laçında qalır.

"İki bacının qardaşıyam. Laçın işğal olunduqdan sonra, 9 yaşımda, 1992-ci ildə Şəki şəhərində məskunlaşdıq. Anam Vətən həsrətinə çox dözə bilmədi. 1995-ci ildə anam 45 yaşında Laçın həsrəti ilə dünyasını dəyişdi. Mən hələ uşaqkən həm vətəndən, həm də anadan yetim qaldım. Həm ana vətənim olan Laçını itirdim, az keçmədi ki, doğma anam da vəfat etdi. Anamın ən böyük arzusu evimizə, Laçına geri qayıtmaq idi. Vətən həsrəti valideynlərimi məndən aldı. 2006-cı ildə ürəyi vətən nisgili ilə döyünən atam ürək tutmasından dünyasını dəyişdi",- deyə Kamal köks ötürərək Laçınla bağlı xatirələrindən danışdı.

K. Allahverdiyev deyir ki, vətəndən uzaq düşsə də, torpaq sevgisini daim ürəyində yaşadaraq bu sevgini övladlarına da aşılaya bilib: "2008, 2010, 2013-cü illərdə iki oğlum və bir qızım dunyaya gəldi. Hər zaman Laçın haqqında usaqlıq xatirələrimi onlarla bölüşürdüm. Övladlarım da mənim qədər Laçının işğaldan azad olunacağı, evimizə geri dönəcəyimiz günü gözləyirdi. Ordumuzun, Ali Baş Komandanımızın sayəsində 2023-cü ilin 14 dekabrında ata evimizə, Laçın şəhərinə qayıtdıq. Bu sözün əsl mənasında Böyük Qayıdış idi. İndi doğulduğum, uşaqlıq xatirələrimi qoyub getdiyim Laçında ailəm, övladlarımla birgə dunyanın ən xöşbəxt ailəsi olaraq yaşayırıq. Hər gün Laçında gözlərimi açdığım səhərə görə, şəhidlərimizə rəhmət, qazilərimizə can sağlığı diləyirəm. Bizi Laçına yenidən qovuşduran şanlı ordumuza dualar edirik".

Həmsöhbətimiz deyir ki, Laçında sevdiyi işlə məşğuldur. Arıçılıq təsərrüfatını özü ilə birgə Laçına gətirib.

"İndi arılarımla birgə Laçının bütün dağlarını gəzirəm. Laçında ərsəyə gələn balın da dadı və keyfiyyəti başqadır. Laçın balı artıq bir markaya çevrilib. Şəhərə gələn turistlər Laçın balı almamış getmirlər. Hər çiçəyində bir ətir, min bir şəfa olan Laçında yetişən bal müalicəvi əhəmiyyət daşıyır. Laçının havası, suyu, dağları cənnətdən bir parçadır. Artıq Laçının xaraba qalmış kəndləri bir-bir dirçəlir. İnsanlar öz xaraba qalmış yurd yerlərində alaçıq qurub qalırlar, amma Laçından getmək istəmirlər. Bu bir daha bizim torpağa nə qədər bağlı olduğumuzu göstərir. İndi Laçın sözün əsl mənasında Laçın vaxtlarını yaşayır. Laçın böyük turizm şəhərinə çevrilməkdədir. Müalicəvi termal suları, təmiz havası sayəsində əminik ki, bölgədə Laçın bir nömrəli turizm məkanına çevriləcək",-deyə Kamal Allahverdiyev inamla bildirir.

Qeyd edək ki, "Böyük Qayıdış" Proqramı çərçivəsində 100 yaşayış məntəqəsinin tikintisi və yenidən bərpası nəzərdə tutulub. Bu barədə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev bildirib. O, deyib ki, artıq yarıdan çoxunun ərazi planlaşdırılması başa çatıb.

"2024-cü ilin sonu 2025-ci ilin əvvəlinə planlaşdırılma tam başa çatacaq. 2026-cı ildə biz bu fəaliyyəti tam olaraq bitirəcəyik. Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilməsi real nəticələrimizi göstərmək üçün fürsət olacaq. Forum iştirakçıları istəyə uyğun görülən işləri müşahidə edə biləcək",- deyə A.Quliyev əlavə edib.

Məlumat üçün onu da bildirək ki, indiyədək Laçın şəhərində 513 ailənin, yəni 1906 nəfərin daimi məskunlaşması təmin edilib.

Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində mühüm işlər görülüb.Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılıb. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulub. Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nəzərə alınmaqla 2022-2026-cı illərdə ümumilikdə təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur.

***Gülayə Mecid***

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

# Yenilənmiş "mygov" rəqəmsal hökumət platforması artıq vətəndaşların istifadəsindədir

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təqdim etdiyi "mygov" rəqəmsal hökumət platforması yenilənib.***

"Unikal" xəbər verir ki, təkmilləşdirilmiş platforma indi vətəndaşlara istifadəçi dostu rəqəmsal interfeys vasitəsilə əsas dövlət xidmətlərinə, rəqəmsal sənədlərə rahat çıxışı şəxsi məlumatların idarə edilməsi imkanı verir. Eyni zamanda vətəndaş - dövlət əlaqələrində inbizati proseslər sadələşir və əməliyyatlar zamanı kağızdan istifadə minimuma enir.

"mygov" vətəndaşlara hansı yeni xidmət və üstünlükləri təqdim edir?

**Əsas həyat hadisələri**

Yenilənmiş "mygov" platforması həmçinin mühüm həyat hadisələri zamanı vətəndaşların işini sürətləndirmək üçün xidmətlər dəstini təklif edir:

- Ailə qurmaq: Platforma nikah sənədlərinin rəqəmsal şəkildə təqdim edilməsini və təsdiqini asanlaşdırır. Belə ki ailə qurmağı planlayan cütlüklər zəruri tibbi müayinə sertifikatlarını yoxladıqdan sonra artıq "mygov" platforması üzərindən nikah günlərini elektron olaraq təyin edə və seçdikləri qeydiyyat orqanında nigah şəhadətnamələrini əldə edə bilərlər.
- Valideyn olmaq: Valideynlər yeni doğulmuş uşaqlarının hüquqi sənədləri və digər əlaqəli xidmətlər üçün onlayn müraciət edə bilərlər.
- Ailə üzvünün vəfatı: Platforma ailə üzvünün ölümünün qeydə alınması prosesini asanlaşdırır. Tibb işçisi lazımi məlumatları sistemə daxil etdikdən sonra ölüm haqqında şəhadətnamə avtomatik olaraq Ədliyyə Nazirliyinə ötürülür və daha sonra ailəyə təqdim eidlir. Bu sənəd həyat hadisəsinin rəsmi təsdiqi deməkdir və birdəfəlik dəfn yardımı, miras hüququ kimi bir çox məsələləri həll etmək üçün zəruridir.

**Rəqəmsal məlumatlar və rəqəmsal sənədlər**

"mygov" tətbiqində 40-dan çox məlumat "məlumatlarım" bölməsində yerləşdirilib. Məlumatlar həm kart şəklində, həm də daha ətraflı siyahı şəklində təqdim edilir. Kartlar vasitəsilə sənəd üzərində olan əsas məlumatları səhifəni açmadan görmək mümkündür. Kart formasında təqdim olunan sənədlər siyahısına şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu, sürücülük vəsiqəsi, nikah haqqında şəhadətnamə və tələbə kartı daxildir. Vətəndaşlar "mygov"dakı rəqəmsall məlumatlarını QR kod vasitəsilə paylaşa və PDF fayl şəklində yükləyə bilərlər.

Bununla yanaşı, "mygov" vətəndaşlar üçün yeni "rəqəmsal sənəd" anlayışını gətirir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 16 iyul tarixli Fərmanı ilə 4 sənəd - şəxsiyyət vəsiqəsi, doğum, nikah və ölüm haqqında şəhadətnamə rəqəmsal formada təqdim olunur. Bu məlumatların "mygov" tətbiqi vasitəsilə təqdim edilməsi fiziki formada təqdim edilməsinə bərabər tutulur.

**Sənəd və məlumatları bir kliklə paylaşma və gizlətmə imkanı**

Vətəndaşlar "mygov" tətbiqinə daxil olaraq sənəd və məlumatlarını QR kod və sənəd nömrəsi vasitəsilə paylaşa bilər. Qurum və müəssisələr təqdim olunan sənəd və məlumatların doğruluğunun yoxlanılmasını "mygov Checker" mobil tətbiqi və veb portalı vasitəsilə həyata keçirir. QR kodu "mygov Checker" mobil tətbiqi ilə skan edərək və ya QR kodun altında təqdim olunan 8 simvollu nömrəni "mygov Checker" veb portalında sorğulayaraq məlumatların doğruluğunu yoxlamaq mümkündür. "mygov Checker" tətbiqində paylaşılan məlumatların ekran görüntüsünü çıxarmaq mümkün deyil və tətbiqdə paylaşılan məlumatların ekranda göstərilmə müddəti maksimum 3 dəqiqədir. "Paylaşdığım məlumatlarım" bölməsində vətəndaş "mygov" mobil tətbiqində paylaşdığı məlumatların tarixçəsi ilə tanış ola və nə zaman, hansı qurum və müəssisə ilə paylaşdığını görə bilər.

**Vətəndaşyönümlü yeni funksionallıqlar**

Platformanın təkmilləşdirilmiş axtarış sistemi istifadəçilərə platformadan ilk dəfə istifadə edərkən ehtiyac duyduqları məlumat və ya xidmətləri tez tapmaq imkanı verir. Bundan əlavə, yeni tətbiq edilən "Bildiriş Modulu" vətəndaşların qanunvericilik aktları, vergi məsələləri, ictimai təhlükəsizlik və sağlamlıqla bağlı mühüm hökumət dəyişiklikləri barədə məlumatlı olmasını təmin edir. "Müraciət Modulu" effektiv kommunikasiya yaradaraq vətəndaş sorğularının və şikayətlərinin hökumətə çatdırılması və geribildirimlərinin vahid platformada izlənməsini, nəticələrinin əldeedilməsini təmin edir.

**Yeni rəqəmsal xidmətlər**

Yenilənmiş "mygov" həm də ekoloji mühitin inkişafına dəstək verəcək xidmətlər təklif edir, yaşıl dünyaya töhfə verir. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin "Elektrik doldurma məntəqələri" adlı xidmətini artıq "mygov"dadır. Belə ki, vətəndaş bu xidmətə daxil olaraq EDM-lərin siyahısı ilə tanış ola bilərlər, müəyyən filterlər tətbiq edərək məntəqələr üzrə axtarış edə və seçdiyi məntəqəyə getmək üçün xəritə üzərində marşrutu görə bilərlər. Vətəndaş "mygov" tətbiqə daxil olaraq "Xidmətlər" bölməsindən "Elektrik doldurma məntəqələri" adlı xidmətə daxil olaraq bu xidməti istifadə edə bilər.

Yenilənmiş platforma, həmçinin kommunal xidmətlər üzrə abunəçi kodlarının dəyişdirilməsi kimi xidmət də təklif edir. Bununla da vətəndaşlar artıq yeni aldıqları mənzillərinin abunə kodlarını olduqları yerdən, sadəcə mobil cihazları ilə dəyişə biləcəklər və vaxta qənaət edəcəklər. Bu xidmət ilkin olaraq "Azərsu", Azəriqazvə "Azərişıq" abunəçiləri üçün təqdim olunur.

"Pensiya kalkulyatoru" xidməti vətəndaşlara pensiyanın nə zaman və qanunvericilikdə nəzərdə tutulan hansı şərtlərlə təyin ediləcəyini real vaxt rejimində öyrənmək imkanı verəcək. Kalkulyator mövcud qanunvericiliklə vətəndaşa yaşa görə əmək pensiyası hüququnun yaranacağı tarix, pensiya hüququnu əldə edəcəyi tarixdəki yaşı, habelə hər üç pensiya növü (yaşa, əlilliyə və ya ailə başçısını itirməyə görə) üzrə tələb olunan sığorta stajı, pensiya kapitalı, hazırda pensiyaçı olub-olmaması və s. barədə məlumatları təqdim edəcək.

Təqdim olunan bütün yeni funksionallıq və xidmətlər müasir, səmərəli və vətəndaş mərkəzli rəqəmsal mühitin qurulmasına hədəflənib. Əsas xidmətlərə asan çıxışı təmin etməklə, məlumatların təhlükəsizliyini artırmaqla və həyatın ən mühüm anlarında inzibati prosesləri sadələşdirməklə vətəndaşların həyat keyfiyyətinin artırılması prioritet məqsədlərdəndir.

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:59 PM Page 13



# “Premium Bank”ın filial müdiri xəzinədarla birləşərək bankın 461 min manatını necə mənimsəyib?




***Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan istintaqla müəyyən edilib ki, “Premium Bank” ASC-də filial müdiri işləyən Məmmədxanova Nəzakət Şərəf qızı bu ilin may ayının 8-dən 23-ü tarixinə kimi işlədiyi 5 saylı filialın 461 min 170 manat pulunu qulluq mövqeyindən istifadə edərək mənimsəyib.***

“Unikal”ın əldə etdiyi məlumata görə, bu işdə ona həmin filialın baş xəzinədarı işləyən Əliyeva Samirə Novruz qızı kömək edib. Yəni fiziki şəxsin hesabına pulun sistem üzərindən köçürülməsi pul xəzinəyə fiziki şəxs tərəfindən real təqdim edildikdən sonra xəzinədar tərəfindən təsdiq edilməli olduğu halda, faktiki olaraq filialın kassasına nağd pul vəsaitini mədaxil etməyərək pulun kassaya mədaxil olunmasına dair yalan məlumatlar daxil etdikləri mədaxil qəbzlərini tərtib edərək Nəzakət Məmmədxanova və Samirə Əliyeva tərəfindən imzalanmaqla sistem üzərindən köçürülməsini filial müdiri təsdiq edib. Beləliklə Nəzakət Məmmədxanova 32 mədaxil qəbzi əsasında 461 min 170 manat pulu bankda olan özünə məxsus hesab nömrəsindən “M10” proqram təminatında istifadəsində olan mobil nömrə vasitəsilə ayrı-ayrı şəxslərdən kriptovalyuta alaraq internet üzərindən kritovalyuta alqı-satqısının həyata keçirildiyi “Binance.com” internet saytında öz hesabına yerləşdirib.

Cinayət Məcəlləsinin 179.3.2, 308.2 və 313-cü maddələri ilə təqsirləndirilən şəxs Nəzakət Məmmədxanova istintaqa ifadə verən zaman özünü təqsirli bilərək qeyd edib ki, 2002-ci ildən bank sektorunda işləsədə “ Silkvay” ASC bankında 2015-ci ildən fəaliyyətə başlayıb. “Premium Bank”ın filial müdiri vəzifəsinə isə 01.03.2024-cü ildə bankın idarə heyətinin sədri Kamil Lətifovun əmri ilə təyin olunub. 2024-cü ilin aprel ayında isə xarici mobil nömrədən Artyom Romanov adlı şəxs onun mobil nömrəsinə zəng edərək kriptovalyuta birjasında iştirak etməyi təklif etmiş. Belə ki, Artyom Romanov Nəzakət Məmmədxanovaya çoxlu pullar qazanacağına dair vədlər vermiş. Bunun üçün Main Capital.com saytında, əlavə olaraq binanse.com saytında və Azərbaycanda fəaliyyət göstərən M10 proqramında öz kartını qeydiyyatdan keçirməli olduğunu bildirib. Artyom həmçinin broker olduğunu və broker kimi həm kritovalyutadan istifadə etməklə investisiya qoyuluşunda kömək edəcəyini, bu sahədə müxtəlif biznes sahələrinə kriptovalyuta şəklində pul qoyuluşundan yüksək məbləğdə gəlir əldə ediləcəyini bildirib. Nəzakət Məmmədxanovada Artyomun vədlərinə inanaraq teledonuna M10 proqramını yükləyərək Premium bankda olan plastik kartını həmin proqramdan qeydiyyatdan keçirmişdir. İlkin olaraq öz yaxınlarından borca pul tapıb kartına yükləmiş və Artyom Romanovun vasitəsilə müxtəlif gəlir əldə etmişdir.

A.Romanov gəlirin necə asan əldə edildiyini göstərməkdən ötrü 200 ABŞ dollarını hesabından çıxarmağıda göstərmiş. Beləliklə, Nəzakət Məmmədxanova ümumilikdə Premium bankdan 32 mədaxil qəbzi əsasında 461170 manat pul vəsaitini bankın kassasına mədaxil etmədən mədaxil qəbzləri əsasında öz plastik kartına və cari hesablara köçürmüşdür. Bir müddətdən sonra pulunu saytlar qaytarmadığını görəndə real vəziyyət barədə bankın rəhbərliyinə özü məlumat verib. Hətta hadisələri özündə olmayıb törətdiyinə görə 2 saylı Psixatriya xəstəxanasında da müalicə alıb.

Cinayət Məcəlləsinin 32.5, 179.3.2, 308.2 və 313-cü maddələri ilə təqsirləndirilən digər şəxs- Samirə Əliyeva da istintaqa verdiyi ifadəsində özünü qismən təqsirli bilib. Belə ki, 2019-cu ildən 2024-cü ilə kimi Premium bankın 5 saylı filialında xəzinədar, bu ilin may ayının 1-dən isə baş xəzinədar vəzifəsində çalışıb. Bu ilin may ayının 8-də Nəzakər Məmmədxanova əlində mədaxil qəbzi ilə Samirə Əliyevaya yaxınlaşaraq qəbzdə göstərilən vəsaiti rəhbərliyin xəbəri olmaq şərti ilə onun plastil kart hesabına köçürməyi bildirib. Nəzakət Məmmədxanova filial müdiri kimi rəhbəri olduğundan pul kassaya mədaxil olmadan onun plastik kart hesabına qəbzdə göstərilən vəsaitin köçürülməsini təsdiq etmişdir. Beləliklə 15 gün ərzində eyni qayda ilə 461170 manat pulu real mədaxil olmadan Nəzakət Məmmədxanovanın bank kartına və cari hesabına köçürmüşdür. Filialın kassasının açarı ancaq məsul şəxs kimi filial müdiri və baş xəzinədarda olur. Nəzakət Məmmədxanovanın pulu hansı istiqamət üzrə xərclədiyindən məlumatı olmayıb.

Qeyd edək ki, hazırda Nəzakət Məmmədxanova və Samirə Əliyeva barəsində olan cinayət işi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə araşdırılır. Cinayət işində “Premium Bank” zərərçəkmiş qismində tanınır.

***Seymur Əli***

# Bu şəxslərə veriləcək kompensasiyanın məbləği müəyyənləşdi

***Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan vergi orqanının vəzifəli şəxsinə və onun ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi Qaydası və məbləği təsdiq edilib.***

”Unikal” xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb.

Qərara əsasən, yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan vergi orqanının vəzifəli şəxsinə xidmət keçdiyi dövr ərzində müvəqqəti yaşayış sahəsi üçün yaşayış məntəqəsindən asılı olaraq mənzil kirayəsi üçün pul kompensasiyası hər ay aşağıdakı məbləğlərdə verilir:

- Bakı şəhərində - 150 manat;
- Gəncə, Naxçıvan, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonunda - 100 manat;
- başqa şəhər və rayon mərkəzlərində - 75 manat;
- digər yaşayış məntəqələrində - 55 manat.



Bu Qaydada qeyd olunan vəzifəli şəxsə onun hər bir ailə üzvünə görə həmin bənddə nəzərdə tutulan müvafiq kompensasiyaların 50 faizi məbləğində əlavə pul kompensasiyası verilir.

Bu Qayda ilə müəyyən edilmiş ödənişlər “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Həmçinin, mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi qaydası müəyyənləşib.

Yaşayış yerindən kənarda yerləşən vergi orqanında xidmətə qəbul olunması və ya vergi orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar olaraq yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan vergi orqanının vəzifəli şəxsi mənzil kirayəsi üçün pul kompensasiyasının verilməsi üçün xidmət etdiyi vergi orqanına ərizə ilə müraciət edərək aşağıdakı sənədləri təqdim edir:

- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin ərazi idarələri tərəfindən vergi orqanının vəzifəli şəxsinin xidmət etdiyi müvafiq vergi orqanının yerləşdiyi ərazidə onun və yetkinlik yaşına çatmış ailə üzvlərinin mülkiyyətində mənzilin (yaşayış sahəsinin) olub-olmaması haqqında verilən arayış;
- vergi orqanının vəzifəli şəxsinin mənzil kirayə götürməsi barədə notariat qaydasında təsdiq edilmiş müqavilə;
- vergi orqanının vəzifəli şəxsinin və ailə üzvlərinin şəxsiyyət vəsiqəsinin, nikah haqqında şəhadətnamənin (evli olduğu halda), 15 yaşına çatmamış uşaqlarının doğum haqqında şəhadətnamələrinin surəti.

Mənzil kirayəsi üçün pul kompensasiyası mənzilin kirayə götürülməsi barədə notariat qaydasında təsdiq edilmiş müqavilənin imzalandığı gündən hesablanmaqla, lakin yeni vəzifəyə təyin edilmə günündən tez olmayaraq vergi orqanının vəzifəli şəxsinin xidmət etdiyi vergi orqanının rəhbərinin müvafiq əmrindən sonra verilir.

Bu Qayda ilə müəyyən edilmiş sənədlər 5 hər ildə bir dəfə (ilin sonunda olmaqla) yenidən toplanaraq, vergi orqanının maliyyə strukturuna təqdim edilməlidir. Həmçinin vəzifəli şəxsin ailə tərkibində dəyişikliklər baş verdikdə, bu barədə vəzifəli şəxs tərəfindən rəhbərliyə məruzə edilməli və pul kompensasiyası ilə bağlı müvafiq sənədlər təqdim olunmalıdır (bu Qaydanın 3.4-cü bəndinin tələbləri nəzərə alınmaqla).

Tələb olunan sənədlərin və ya məlumatların “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar vergi orqanının vəzifəli şəxsindən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vergi orqanının vəzifəli şəxsinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya vergi orqanının vəzifəli şəxsi tərəfindən təmin edilir.

Mənzilin kirayəsi üçün pul kompensasiyası vergi orqanının vəzifəli şəxsinin təqdim etdiyi müqavilədə nəzərdə tutulan kirayə haqqı məbləğində, lakin bu Qaydanın ilə müəyyən edilmiş məbləğlərdən artıq olmamaq şərti ilə verilir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən xidməti yaşayış sahəsi ilə (digər yaşayış sahəsi ilə) təmin edilmiş vergi orqanının vəzifəli şəxsinə mənzil kirayəsi üçün pul kompensasiyası verilmir.

Təsdiq edilən Qaydada göstərilən maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçiriləcək.

Bu Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

31_27 IYUl-QARA.qxd 9/5/2024 10:59 PM Page 14



# Müəllimlərin sertifikatlaşdırılmasının müsahibə mərhələsinin vaxtı açıqlandı

***Sertifikatlaşdırma prosesinin müsahibələri barədə məlumat müəllimlərin şəxsi kabinetlərinə göndərilib.***

Bu barədə ”Unikal”a Təhsil İnstitundan məlumat verilib.



Bildirilib ki, təhsilverənlərin sertifikatlaşdırılması prosesinin müsahibə mərhələsinin keçiriləcəyi tarix və məkan barədə məlumatlar müəllimlərin şəxsi kabinetlərinə göndərilib. 9 sentyabr tarixindən etibarən sertifikatlaşdırma prosesinin müsahibələri təşkil olunacaq.

Sertifikatlaşdırma prosesinin müsahibə mərhələsi ilə bağlı məlumatlar müəllimlərin şəxsi kabinetlərinə hissə-hissə göndərilir.

Xatırladılıb ki, test imtahanlarında keçid balı toplayan şəxslərin əməkhaqqına 10 %, 51 bal və daha yüksək nəticə əldə etmiş şəxslərin əməkhaqqına 35 % əlavə veriləcək. Əlavələr müsahibə mərhələsində uğur qazanan müəllimlərin əməkhaqqına tətbiq olunacaq. Nəzərinizə çatdırırıq ki, 2023-cü ildə təşkil olunan sertifikatlaşdırma prosesinin müsahibə mərhələsində 21883 nəfər təhsilverən iştirak edib. İştirak edən təhsilverənlərdən 21784 (99,5%) nəfəri uğur qazanıb.

# "Meymunçiçəyi" xəstəliyinin yayılmasına qarşı tədbirlər müzakirə olundu

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırığına əsasən Səhiyyə Nazirliyində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), “Azərbaycan Hava Yolları” QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının səlahiyyətli nümayəndələrinin iştirakı ilə görüş keçirilib.***



”Unikal” xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, görüşdə cari ilin noyabr ayında COP29 beynəlxalq tədbirinin ölkəmizdə keçirilməsi ilə əlaqədar aidiyyəti qurumların birgə koordinasiyalı fəaliyyətinin təşkili üçün hazırlanmış tədbirlər planı müzakirə olunub.

Hazırda bir çox ölkələrdə “Meymunçiçəyi” virusunun sürətlə yayılması hallarını nəzərə alaraq, respublika ərazisində profilaktik tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulanıb. Yekunda rəy və təkliflər dinlənilərək görüləcək fəaliyyətlərə dair vahid yanaşma müəyyənləşdirilib.

# “Vətən fədailəri: Tovuz şəhidləri" kitabının təqdimat mərasimi keçirildi

***2 sentyabr 2024- cü il tarixində Yazıçı-publisist, AYB-nin və AJB-nin üzvü, ”VƏTƏN FƏDAİLƏRİ” layihəsinin rəhbəri Manya Səxavətqızının şəhidlərimizə həsr etdiyi növbəti ”VƏTƏN FƏDAİLƏRİ:TOVUZ ŞƏHİDLƏRİ” kitabının təqdimat mərasimi keçirildi.***

Təqdim olunan kitab “VƏTƏN FƏDAİLƏRİ” layihəsinin IV hissəsidir. Bundan öncə ”VƏTƏN FƏDAİLƏRİ:NAXÇIVAN ŞƏHİDLƏRİ” I Hissə, ”VƏTƏN FƏDAİLƏRİ:İMİŞLİ ŞƏHİDLƏRİ” II Hissə, “VƏTƏN FƏDAİLƏRİ:ŞƏKİ ŞƏHİDLƏRİ” III Hissə ərsəyə gətirilib. Məmmədov Şahin Əbdül oğlunun dəstəyi və Məmmədov Bəhruz Qasım oğlunun maliyyə dəstəyi ilə ərsəyə gələn kitab Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının göstərişi ilə Tovuz rayonu Nizami Gəncəvi adına Mədəniyyət Mərkəzində təqdimat mərasimi keçirildi. Elvin Nüsrətoğlunun aparıcılığı ilə keçirilən təqdimat mərasimində şəhid ailələri, qazilər, hərbçilər, media nümayəndələri və digər qonaqlar iştirak etdilər. Təqdimat mərasimində ilk olaraq Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin rəisi general mayor Müşfiq Məmmədovun göstərişi ilə tədbirdə iştirak edən Azərbaycan Silahlı Qüvvələrinin Hərbi orkestrının müşayəti ilə bir dəqiqəlik sükutla şəhidlərimizin xatirələri anıldıqdan sonra Azərbaycan Dövlət himni ucaldıldı. Sonra layihənin rəhbəri Manya Səxavətqızı və ardınca layihənin dəstəkçisi Şəhid qardaşı, qazi oğlu Şahin Məmmədov və kitabın maliyyə dəstəkçisi Bəhruz Məmmədov qonaqları salamlayaraq ”VƏTƏN FƏDAİLƏRİ” layihəsi haqqında məlumat verdilər. N saylı hərbi hissənin İdealoji iş və mənəvi psixoloji təminat bölmə rəisi Mayor Ağayev Nicat Rafiq oğlu, şəhid ailələri və digər qonaqlar çıxış edərək “VƏTƏN FƏDAİLƏRİ:TOVUZ ŞƏHİDLƏRİ” kitabının mahiyyətindən və bu kimi addımların atılmasının vacibliyindən söz açdılar. Kitab şəhid ailələri ilə yanaşı gələn bütün qonaqlara təmənnasız bağışlanıldı.



Qeyd edək ki, ”VƏTƏN FƏDAİLƏRİ” layihəsinin IV Hissəsi olan ”VƏTƏN FƏDAİLƏRİ:TOVUZ ŞƏHİDLƏRİ” kitabı Manya Səxavətqızının sayca 11-ci, şəhidlərimizə həsr etdiyi 9-cu kitabıdır.

Vətəni azadlığa qovuşduran şəhidlərimizin adlarını Manya Səxavətqızı kitablara həkk edərək əbədi yaşadır.




# 2024-cü ilin 6 ayında Ağdaşın nəqliyyat, informasiya və rabitənin əsas göstəriciləri

***2024-cü ilin yanvar-iyun aylarında avtomobil nəqliyyatı ilə 573,0 min ton yük, 6698,0 min sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrünə nisbətən yük daşınması 6,1 faiz və ya 33,0 min ton, sərnişin daşınması isə 7,0 faiz və ya 440,0 min sərnişin artmışdır.***

2024-cü ilin yanvar-iyun ayları ərzində nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə cəmi məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 13,3 faiz artaraq 3581,4 min manat olmuşdur. Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə məhsul buraxılışının 3181,4 min manatı və ya 88,8 faizi fiziki şəxslərin payına düşmüşdür. 2024-cü ilin yanvar-iyun aylarında fiziki şəxslər tərəfindən nəqliyyat sektorunda göstərilmiş iş və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz və ya 161,8 min manat artaraq 3181,4 min manat olmuşdur. Həmin iş və xidmətlərin 1302,8 min manatı və ya 41,0 faizi yük daşınmasının, 1878,6 min manatı və ya 59,0 faizi isə sərnişin daşınmasının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrünə nisbətən 2024-cü ilin yanvar-iyun aylarında fiziki şəxslər üzrə məhsul buraxılışının ümumi həcmində yük daşınması 5,5 faiz və ya 68,3 min manat, sərnişin daşınması isə 5,2 faiz və ya 93,5 min manat artmışdır. 2024-cü ilin yanvar-iyun aylarında poçt xidmətlərinin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 21,6 faiz və ya 45,6 min manat azalaraq 165,5 min manat olmuşdur.

2024-cü ilin yanvar-iyun aylarında informasiya və rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara 286,5 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 23,8 faiz az informasiya və rabitə xidmətləri göstərilmişdir. Göstərilən informasiya və rabitə xidmətlərinin dəyərinin 242,5 min manatı və ya 84,6 faizi əhali tərəfindən ödənilmişdir. Bu dövrdə informasiya və rabitə xidmətlərindən əldə olunan gəlirin 151,0 min manatı və ya 52,7 faizi internet xidmətlərindən, 89,1 min manatı (31,1 faizi) şəhər-kənd telefon rabitəsi üzrə xidmətlərdən, 46,4 min manatı (16,2 faizi) isə şəhərlərarası və beynəlxalq telefon rabitəsi üzrə xidmətlərdən daxil olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

# Göygöl rayonunda 2024-cü ildə taxıl biçini başa çatıb

***Rayonun tarlalarında 2024-cü ilin məhsulu üçün 4326,8 hektar sahədə biçin aparılmışdır ki, bunun da 2310,5 hektarı sahəsini buğda, 2016,3 hektar sahəsini arpa təşkil etmişdir.***

Biçilmiş taxıl məhsulu 12328,0 ton olmuşdur. Bunun 6700,0 tonu buğdanın, 5628,0 tonu arpanın payına düşmüşdür. Taxıl əvvəlki ilə nisbətən 4076,0 ton və ya 49,4 faiz, buğda 1695,0 ton və ya 33,9 faiz, arpa isə 2381,0 ton və ya 73,3 faiz artmışdır.

Təsərrüfat kateqoriyaları üzrə biçilmiş sahələr dövlət təsərrüfatlarında 450,0 hektar, qeyri-dövlət təsərrüfatlarında 30,0 hektar, fərdi sahibkar və ailə kəndli təsərrüfatlarında isə 3846,8 hektar olmuşdur.

Cari ildə rayon üzrə taxılın məhsuldarlığı 28,5 sentnerə, buğdanın məhsuldarlığı 29,0 sentnerə, arpanın məhsuldarlığı 27,9 sentnerə çatmışdır. Rayonda əvvəlki ilə nisbətən hər hektardan 12,1 sentner taxıl, 13,8 sentner buğda, 9,5 sentner çox arpa götürülmüşdür.

***Göygöl Rayon Statistika İdarəsi***

31_27 IYUI-QARA.qxd 9/5/2024 11:00 PM Page 15



# Zelenskinin həbs edilməsi üçün order verildi



***Krım xalq milisləri Ukrayna lideri Vladimir Zelenskinin tutulması üçün simvolik order verib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Dumasının Krımdan olan deputatı Mixail Şeremet deyib.

Şeremetin sözlərinə görə, order Krım xalq milislərinin bütün üzvlərinə "müharibə cinayətkarı Volodimir Zelenskinin tutulması" üçün lazımi səylərin göstərilməsi əmridir.

***Gülayə Mecid***

# Ermənistanın Katolikosu COP29-a maraq göstərir

***Ermənistan Katolikosu I Aram Kanadanın Livandakı səfirini qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

"Katolikos I Aram A. Pikfaya Müqəddəs Məryəm Monastırında Qananın Livandakı səfiri Stefani Makkallumu qəbul edib.

Görüşdə Qəzza müharibəsi, Livandakı prezident seçkiləri, Ermənistan və Qana münasibətləri, Azərbaycanda keçiriləcək COP29 və Qanadakı erməni icması mövzularını müzakirə ediblər.

Maraqlıdır ki, tərəflərin Azərbaycanda keçiriləcək COP29-la bağlı konkret nələri müzakirə etdikləri açıqlanmayıb.

# İsrailin Münhendəki Baş Konsulluğu yaxınlığında insident

***İsrailin Münhendəki Baş Konsulluğu yaxınlığında atəş səsləri eşidilib.***



"Unikal" xəbər verir ki, bu barədə "Focus" nəşri məlumat yayıb. Məlumata görə, yerli sakinlər atəş və qışqırıq səsləri eşidiblər. Hadisə yerində polis gəlib. Helikopterlərdən istifadə edərək atəş açan şəxslər axtarılır.

Nəşr qeyd edib ki, sentyabrın 5-i 1972-ci il Olimpiya Oyunlarının bombalanmasının ildönümüdür. Daha sonra İsrail komandası hücuma məruz qalıb və 14 idmançıdan 11-i girov götürülüb. Nəticədə girovlardan heç biri sağ qalmayıb.

Atışma zamanı İsrailin Münhendəki konsulluğunun əməkdaşları xəsarət almayıb. Bu barədə İsrailin "Kan" radiostansiyası ölkənin Xarici İşlər Nazirliyinin bəyanatına istinadən məlumat yayıb.

***Gülayə Mecid***

# "Paşinyanın partiyasında Bakıya getmək uğrunda mübarizə gedir" - Edqar Qazaryan

***Ermənistanın hakim "Mülki Müqavilə" fraksiyasında Bakıya getmək uğrunda mübarizə gedir.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Polşadakı keçmiş səfiri Edqar Qazaryan açıqlayıb.

O, Ermənistan hakimiyyətinin COP29-dan əvvəl Bakıya getməklə bağlı müzakirələrinə toxunaraq qeyd edib ki, həmin tədbir hər il bir ölkədə təşkil olunur: "2018-ci ildə COP-24 Polşanın Katovitse şəhərində keçirildi. Konfrans dekabrda idi, mən artıq noyabrda geri çağırılmışam, amma təşkilati işlər mənim səlahiyyətim dövründə aparılıb. Ermənistandan ətraf mühit nazirinin müavininin həmin konfransda iştirak etməsi qərara alınmışdı.

İndi Bakı olduğu üçün kimin gedəcəyi uğrunda mübarizədir. Paşinyan özü getmək istəyir, Ararat Mirzoyan getmək istəyir, Ovik Ağazaryan deyir ki, mən də istəyirəm. Fraksiyada dava gedir. Onlar hansı səviyyədə iştirak etmək üçün mübarizə aparırlar".

***Ağarza Elçinoğlu***

# "Aİ missiyası Azərbaycana qarşı kəşfiyyat məlumatları toplayır" - Səfir

***Ermənistan-Azərbaycan sərhədində işləyən Aİ-nin Ermənistandakı missiyası monitorinq adı altında Rusiya, Azərbaycan və İrana qarşı mübarizə aparmaq üçün kəşfiyyat məlumatlarının toplanması ilə məşğuldur.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin deyib.

"Ermənistanın bu gün üzləşdiyi bir çox risklər 2022-ci ilə dayanır. Sentyabrda İrəvan Azərbaycanla sərhəddə vəziyyətin sabitləşdirilməsinə yönəlmiş KTMT ilə bağlı



kompleks tədbirlər həyata keçirməyə razılaşıb. Söhbət ciddi təşəbbüslərdən gedirdi, o cümlədən hərbi-texniki yardım, monitorinq missiyasına rəhbərlik, sərhədçi qoşunların təliminə dəstək və s. Təəssüf ki, Ermənistan rəhbərliyi dövlətin sərhədlərini heç bir şəkildə qorumayan, Rusiya, Azərbaycan və İrana qarşı kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olan Aİ missiyasını dəvət etməyi üstün tutdu. Cənubi Qafqazın taleyini müstəsna olaraq region ölkələri və qonşu tərəfdaş dövlətlər həll etməlidir. Kənardan heç kim ümumi evimizə sülh və firavanlıq gətirməyəcək", - Kopirkin bildirib.

***Ağarza Elçinoğlu***

# ABŞ senatoru HƏMAS-ın yeni liderini ölümlə hədələdi

***ABŞ Respublikaçılar Partiyasının senatoru Lindsey Qraham HƏMAS-ın yeni Siyasi Bürosunun rəhbəri Yəhya əs-Sinvarı öldürməklə hədələyib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Amerikanın "Fox News" telekanalına müsahibə verib.

O, bildirib ki, Respublikaçılar Partiyası 2024-cü il ABŞ prezident seçkilərində qalib gəlsə, HƏMAS-ın yeni siyasi lideri Sinvarı "mühakimə etməkdənsə öldürmək" niyyətindədirlər.

ABŞ Ədliyyə Nazirliyinin HƏMAS-ın 6 liderinə qarşı iddianamə hazırlandığını açıqlamasına münasibət bildirən Qraham, "Biz burada cinayətlə mübarizə aparmırıq. Sinvar Ədliyyə Naziri Merrik Garland tərəfindən mühakimə olunmağın vecinə deyil. Günləriniz sayılıdır. Dostum, səni mühakimə etməyəcəyik, səni öldürəcəyik",- deyib.

Sərt açıqlamaları ilə tanınan Cənubi Karolina senatoru Qraham ABŞ-nin keçmiş prezidenti Donald Trampın Yaxın Şərq siyasətini tərifləyərək, Amerikanın "çəkindirici gücünü itirdiyini" və prezident Co Bayden və onun müavini Kamala Harrisdən "heç kim qorxmadığını" bildirib.

Qraham qeyd edib ki, Tramp iranlı general Qasım Süleymanini İraqda amerikalıları öldürmək pla-



nının qarşısını almaq üçün "İranı maksimum iqtisadi təzyiqlə tələyə salıb və Süleymanini məhv edib".

***Gülayə Mecid***

# "Durovun Bakıda olduğunu bilmirdim" - Putin

***Rusiya prezidenti Vladimir Putin avqustda Bakıya səfəri zamanı "Telegram"ın yaradıcısı Pavel Durovla görüşmədiyini bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya lideri Vladivostokda keçirilən Şərq İqtisadi Forumunda çıxışı zamanı açıqlayıb. Putin Bakıdan Parisə gedən kimi Fransa hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılan milyarder ətrafında yaranmış vəziyyəti ilk dəfə olaraq şərh edib: "Niyə Bakıda görüşməliyik? Mən doğrudan da başa düşmürəm, onun orada olduğunu da bilmirdim, bu barədə heç bir fikrim yox idi, əgər istək varsa, burada çoxlu biznes nümayəndələri var, hamı bilir. Mən heç vaxt görüşdən imtina etmirəm, istər sahibkarlarımızın birlikləri çərçivəsində, istərsə də ayrı-ayrılıqda müəyyən layihələri nəzərdən keçirərək, belə görüşləri mütəmadi olaraq keçiririk... Ona görə də onun arzusu olsaydı, mənimlə Moskvada görüşə bilərdi".

Rusiya prezidentinin sözlərinə görə, platformanın bəzi şəxslər və strukturlar tərəfindən müəyyən şəkildə istifadə edilməsi, onların fəaliyyəti ilə bu və ya digər dövlətlərin iqtisadiyyatına və ya təhlükəsizliyinə zərər vura biləcəyini nəzərə alaraq, bir çox ölkələrdə "Telegram"a qarşı şikayətlər olub. Ola bilsin ki, Rusiya hökumətinin də Durovla bağlı bəzi sualları ola bilər, lakin bu tipli bütün platformalar bunda günahkardır. Əgər Durova bunu edirlərsə, yəqin ki, başqalarını da həbs etməli, ya ev dustaqlığına, ya da başqa cür həbs etməlidirlər: "Fransa hakimiyyətinin özlərinin hərəkətləri mənim üçün o qədər də aydın deyil, çünki onlar seçicidirlər".

***Ağarza Elçinoğlu***

# "Rusiya tərəflərin ikitərəfli formatda işləməsi üçün zamanət verir" - Sergey Kopirkin

***Rusiya Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində "vicdanlı vasitəçi" rolundan heç vaxt imtina etməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin deyib.

Onun sözlərinə görə, buna əyani sübut Rusiya prezidenti Vladimir Putinin tərəfdaşları ilə son təmasları, xüsusən avqustun 18-19-da Azərbaycana dövlət səfəri və bundan sonra Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan prezidenti ilə telefon danışıqlarıdır: "Müsbət nəticə əldə etmək üçün Rusiyada lazımi təcrübə, materiallar və regionda müvafiq səlahiyyət var. Üstəlik, kollektiv Qərbdən fərqli olaraq biz Cənubi Qafqazı heç kimlə qarşıdurma zonası hesab etmirik. Artıq dünya ölkələrinin əksəriyyəti baş verən hadisələrin əsl məqsədini aydın dərk edirlər: regionu Rusiya ilə Qərbin növbəti qarşıdurma meydanına çevirmək, istənilən yolla və nəyin bahasına olursa olsun ölkəmizin maraqlarına zərər vurmaq".

Rusiya səfirinin sözlərinə görə, Putinin imzaladığı sənəddə qeyd edildiyi kimi, Rusiya tərəfinin sülh müqaviləsinin inkişafına yanaşması dəyişməz olaraq qalır: "Əlbəttə ki, yardımımızın həcmi və formaları tərəflərin hər biri üçün məqbul olmalıdır. Əldə edilmiş üçtərəfli razılaşmalara uyğun olaraq, Moskva sülh müqaviləsi layihəsi üzrə danışıqlar üçün platformanı uğurla təmin etdi. Bir daha qeyd edim ki, biz bunu gələcəkdə də etməyə hazırıq. Biz hər iki nümayəndə heyətinin üstünlük verdiyi ikitərəfli formatda işləməsi üçün ən rahat şəraitin yaradılmasına zəmanət veririk".

Kopirkin əlavə edib ki, Rusiya Federasiyası Moskvanın iki müttəfiqi arasında balanslaşdırılmış sülh müqaviləsinin bağlanmasını bölünməz təhlükəsizlik və davamlı sosial-iqtisadi inkişafın arxitekturasının qurulması üçün əvəzsiz ilkin şərt hesab edir: "Ümid edirik ki, mövcud fikir ayrılıqları ən qısa zamanda həll olunacaq və ən yüksək səviyyədə üçtərəfli sazişlərə uyğun olaraq Ermənistan-Azərbaycan münasibətlərinin digər sahələrində də uğurlu irəliləyiş gətirəcək".

***Ağarza Elçinoğlu***

31_27 IYUl-QARA.qxd 9/5/2024 11:00 PM Page 16



# Yığmamız Millətlər Liqasına məğlubiyyətlə başladı

**Futbol üzrə milli komandamız bu gün UEFA Millətlər Liqasında mübarizəyə başlayıb.**

"Unikal" xəbər verir ki, Fernandu Santuşun rəhbərlik etdiyi kollektiv Bakıda İsveç seçməsini qəbul edib.

Tofiq Bəhramov adına Respublika stadionunda baş tutan görüşə saat 20:00-da start verilib. Qarşılaşma qonaqların qələbəsi ilə nəticələnib - 3:1.




# Azərbaycan klubu braziliyalı voleybolçunu transfer etdi



***Transfer çalışmalarını davam etdirən "Gəncə" komandası heyətini daha bir voleybolçu ilə gücləndirib.***

Qərb təmsilçisinin mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, "sarı-göylər" braziliyalı voleybolçu Kerolayn Ferreira Perotto ilə 1 illik müqavilə imzalayıb.

Ötən mövsümü İsveçin "Hytle Halmstad" komandasında keçirən oyunçu Tunisdə "Esperance Sportiv", CSS, Peruda "Circolo" klublarının şərəfini qoruyub. Ölkəsində isə "Brasilia Volei", UPIS, "Pinheiros" və "ADC Bradesco" komandalarının uğurları üçün çalışıb.

# "Qarabağ" iştirak ərizəsini UEFA-ya təqdim etdi

***"Qarabağ" Avropa Liqasının Liqa mərhələsi üçün iştirak ərizəsini UEFA-ya göndərib.***

"Unikal" xəbər verir ki, yeni formatda keçiriləcək turnirin 8 matçı üçün sifariş vərəqində 24 futbolçu yer alıb.

Qapıçılar: 97. Fabiyan Buntiç, 99. Mateuş Koxalski, 12. Sadiq Məmmədzadə;

Müdafiəçilər: 2. Mateus Silva, 13. Bəhlul Mustafazadə, 27. Toral Bayramov, 29. Marko Veşoviç, 30. Abbas Hüseynov, 44. Elvin Cəfərquliyev, 55. Bədavi Hüseynov, 81. Kevin Medina;



Yarımmüdafiəçilər: 6. Julio Romao, 7. Yassin Benzia, 8. Marko Yankoviç, 10. Abdullah Zubir, 15. Leandro Andrade, 20. Riçard Almeyda, 21. Aleksey Kaşuk, 24. Aleksey İsayev, 66. Patrik Andrade;

Hücumçular: 11. Emmanuel Addai, 18. Olavio Juninyo, 22. Musa Qurbanlı, 90. Nəriman Axundzadə.

Qeyd edək ki, "Qarabağ" ilk qarşılaşmasını sentyabrın 26-da İngiltərə "Tottenhem"ə qarşı keçirəcək. Ardınca Ağdam klubu evdə İsveçin "Malmö" və Niderlandın "Ayaks", səfərdə Norveçin "Bodo Qlimt" klubları ilə görüşəcək. Fransa "Lion"unu qəbul etdikdən sonra İsveçdə "Elfsborq"un qonağı olacaq Azərbaycan çempionu son iki oyununu 2025-ci ildə keçirəcək. "Qarabağ" Bakıda Rumıniyanın "Styaua" komandası ilə, Yunanıstanda isə "Olimpiakos"la üz-üzə gələcək.

# Şəhidin xatirəsinə həsr olunan turnir keçirilib

***Yalçın Canhəsən oğlu Nəsirov Azərbaycan müstəqil olandan sonra Vətənin yaşaması, xalqının xoşbəxtliyi naminə canını fəda edərək adını tarixə yazıb.***

Arzusu Vətənini azad, bütöv və güclü görmək olan Yalçın Nəsirov 23 yanvar 1976-cı ildə Astara rayonu, Sərək kəndində dünyaya gəlib. Doğma kəndində orta təhsilini başa vurub,1994-cü ildə ordu sıralarına gedib. Tərtərdə Vətəninə ləyaqətlə xidmət edib. 1995-ci ilin 13-17mart günlərində Azərbaycanın müstəqilliyi təhlükə altında olanda özünü güllə qabağına verməklə ağır yaralanıb. Martın 24-də Yalçın aldığı yaradan Sabunçu rayon xəstəxanasında əbədiyyət dünyasına qovuşub. Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanına əsasən Yalçın Nəsirov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Astaradakı Sərək kənd orta məktəbi onun adını daşıyır. Oxuduğu sinifdə Milli Qəhrəmanın qısa, lakin şərəfli ömür yolundan bəhs edən guşə yaradılıb. Həmçinin rayonun "Qəhrəmanlar" parkında büstü qoyulub. Belə də astaralılar öz qəhrəman oğlunu heç vaxt unutmur, onu böyük iftixarla xatırlayır.



Bu günlərdə isə rayonun "Ümid" İdman Kompleksində Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində baş tutan Azərbaycanın Milli Qəhrəmanı Yalçın Nəsirovun xatirəsinə həsr olunmuş mini futbol üzrə Astara rayon açıq turnirinə yekun vurulub. 15 gün davam edən turnirdə 4 qrup üzrə 16 komanda, ümumilikdə, 192 idmançı qələbə uğrunda mübarizə aparıb.

Yekun nəticəyə əsasən I yerə Astaranın "Rüdəkənar" komandası turnirin birincisi olub. Lənkəranın "Mamusta-2" komandası II yeri qazanıb. "Mamusta-1" (Lənkəran) komandası isə III yeri tutub.

Turnirin açılış və təltif etmə mərasimlərində Azərbaycanın Milli Qəhrəmanı Yalçın Nəsirovun qardaşları Afərin, Möhsün Nəsirovlar, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin Astara rayonu üzrə gənclər və idman sektorunun əməkdaşları, Astara Rayon İcra Hakimiyyətinin şöbə müdiri Turan Həsənzadə, "Ümid" İdman Kompleksinin direktoru Ümidvar Məmmədov iştirak ediblər.

I, II, III yerləri tutan komandalar, komanda üzvləri Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin kubok, medal və diplomlarla , eləcə də təşkilati işlərdə fərqlənən 5 nəfər diplomlarla, eləcə də "Ən yaxşı hücumçu", "Ən yaxşı qapıçı" "Ümid" İdman Kompleksinin hədiyyələri ilə təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***




# "Formula 1"ə görə bağlanan bəzi əsas yollar açılacaq

***"Formula 1" üzrə Azərbaycan Qran-prisinə görə bağlanan bəzi əsas yollar əhalinin istifadəsi üçün açılacaq.***

Bu barədə "Unikal"a Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən məlumat verilib.

Bildirilib ki, yarış zolağının aşağıda qeyd olunan giriş və çıxış hissələri bazar ertəsi, sentyabrın 9-dan cümə axşamı sentyabrın 12-dək müəyyən saatlarda nəqliyyatın hərəkətinə açıq olacaq.

**Giriş nöqtələri:**

Salyan şosesindən Neftçilər prospekti və Azneft dairəsi istiqamətində.

M.Lermontov küçəsindən BMT-nin 50 İlliyi küçəsi və İstiqlaliyyət küçəsi istiqamətində.

S.Vurğun küçəsindən Ü.Hacıbəyli küçəsi və Bülbül prospekti istiqamətində.

Bülbül prospektindən Xəqani küçəsi və Neftçilər prospekti istiqamətində.

Nizami və Puşkin küçələrinin kəsişməsindən Xəqani küçəsi istiqamətində.

**Çıxış nöqtələri:**

Neftçilər prospektindən Bakı Dəniz Limanı, Port Baku Mall və Crescent Mall istiqamətində.

İstiqlaliyyət küçəsindən Azərbaycan prospekti istiqamətində.

Neftçilər prospektindən Azneft dairəsi, Dəniz Mall və Salyan şosesi istiqamətində.

Belə ki, 9, 10, 11 sentyabr tarixlərində, səhər saat 07:00-dan 09:00-dək, axşam saat 18:00-dan 20:00-dək yuxarıda qeyd olunan yollarda nəqliyyatın hərəkəti dayanma və durma olmadan sərbəst olacaq.

Sentyabrın 12-də sözügedən yollar səhər saat 07:00-dan 09:00-dək, axşam isə saat 20:00-dan 22:00-dək açıq olacaq.

BŞH sürücülərə bildirir ki, qeyd olunan yollar yalnız tranzit korridoru kimi istifadə ediləcək. Həmçinin fövqəladə hallar istisna olmaqla, Tranzit dəhlizləri açıq olduğu zaman, nəqliyyat vasitələrinin parklanması, sərnişin minmə və enməsi qadağandır. Bundan başqa, həmin yollarda ağır tonnajlı yük maşınlarının və ictimai nəqliyyatın hərəkəti istisna edilir.

Sözügedən yollarda sürət həddi 50 km/saat olaraq müəyyən edilib. Bu yollardakı nəqliyyatın hərəkətini BŞH və aidiyyəti güc strukturları birgə tənzimləyəcək.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 13-15-i aralığında təşkil olunacaq.

# Şahruddin, Keyta və Cica niyə "Qarabağ"ın avrokubok siyahısına salınmadı?

***Xəbər verdiyimiz kimi, "Qarabağ" UEFA-ya iştirak ərizəsini təqdim edib. "Qafqazinfo" xəbər verir ki, siyahıda Ağdam klubunun 3 futbolçusunun adı yoxdur.***

Bunlar Şahruddin Məhəmmədəliyev, Hamidu Keyta və Redon Cicadır.

Maraqlıdır ki, Avropa Liqasının qrup mərhələsində mübarizə aparacaq komanda bu oyunçuların adlarını oyunlar üçün qitə futbol qurumuna göndərməyib.

Əldə etdiyimiz məlumata görə, bu futbolçuların adları UEFA-nın qoyduğu limitə görə siyahıdan çıxarılıb. Belə ki, qitə futbol qurumu yalnız 23 oyunçunun siyahıda yer almasına icazə verir. Limit 23+1-dir. Bu səbəbdən həmin oyunçular kənarda qalmalı olub. Ötən il də "Qarabağ" analoji halla üzləşmişdi.

Limit səbəbindən Adama Diakabi siyahıdan kənarda qalmışdı.